QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 178 (5898) **28 sentyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev Fransanın ölkəmizdəki səfirliyində olub

*Dövlət başçısı sabiq Prezident Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verib*



Səh 2

5

“Mitinqdə insanların iştirakı ilə bağlı sorğunun nəticələri virtual müxalifətdən ötrü soyuq duş effekti yaratdı”



13

İşğalçı Paşinyanın böyük qələtinin böyük bədəli...



5

Azərbaycanın Xarici İşlər Nazirliyi: Lyon məhkəməsinin qərarını alqışlayırıq



# Prezident İlham Əliyev Fransanın ölkəmizdəki səfirliyində olub

*Dövlət başçısı sabiq Prezident Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verib*










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər.

AZƏRTAC xəbər verir ki, Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladı.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdılar.

Səfirlə söhbət edən Prezident İlham ƏLİYEV dedi: Cənab səfir, bizim başsağlığımızı qəbul edin. Prezident Şirak Azərbaycanın yaxın dostu olmuşdur. Biz onu mənim atamla şəxsi dostluğu başlayan dövrdən tanıyırıq və onların birgə səyləri nəticəsində ölkələrimiz arasında çox yaxın tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz onunla görüşlərimizi xatırlayırıq. Bildiyiniz kimi, mən ilk dəfə Prezident seçiləndə, xaricə etdiyim ilk rəsmi səfər Fransaya olmuşdur. O vaxt Prezident Şirak məni rəsmi səfərə dəvət edən ilk xarici dövlət başçısı olmuşdur və bu, bizim əməkdaşlığın çox yaxşı göstəricisi idi. O vaxtdan bəri ölkələrimiz arasında əməkdaşlıq uğurla inkişaf edir. Bu yaxınlarda sizinlə də görüşdə mən ölkənizin prezidentləri ilə görüşlərdən xatirələrimi bölüşdüm. Bir daha bizim başsağlığımızı qəbul etməyinizi xahiş edirəm.

Səfir Zakari QROS dedi: Cənab Prezident, hörmətli Birinci vitse-prezident, buraya gəlməyinizə və sözlərinizə görə Sizə təşəkkür edirəm. Prezident Makron və Fransa xalqı adından səmimi sözlərinizi və burada olmağınızı yüksək qiymətləndirdiyimizi bildirmək istəyirəm. Sizin də qeyd etdiyiniz kimi, Prezident Şirak Fransada və beynəlxalq arenada birləşdirici rol oynayaraq sülhü təşviq etmiş dövlət xadimi olmuşdur. Gəlişiniz bizi təsirləndirdi, Sizə minnətdaram.

## Baş Nazir Novruz Məmmədov: Prezident Jak Şirakın xatirəsi uzun müddət yaddaşlarda qalacaqdır

***Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Fransa Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə bağlı başsağlığı verib.***

Baş Nazirin bununla bağlı "Twitter" səhifəsində etdiyi paylaşımda deyilir: "Görkəmli siyasət və dövlət xadimi, 1995-2007-ci illərdə Fransanın 22-ci Prezidenti olmuş Jak Şirakın vəfatı məni çox kədərləndirdi. Dövlətlərarası münasibətlərə xüsusi həssaslıq nümayiş etdirən Prezident Şirakın beynəlxalq aləmdə böyük nüfuzu vardı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli üçün çox çalışdı. Prezident Jak Şirakın xatirəsi uzun müddət yaddaşlarda qalacaqdır".



# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı sərginin açılışında iştirak edib













***Sentyabrın 27-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı kitab sərgisinin açılış mərasimi olub.***

"Mədəni sərvətlərimizin vətənə qayıdışı" layihəsi çərçivəsində təşkil olunan sərgi Bakı VI Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində reallaşıb. Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Mədəniyyət naziri Əbülfəs Qarayev tədbirdə çıxış edərək sərgi haqqında ətraflı məlumat verib. Bildirib ki, sərgidə Şərqin böyük mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş əlyazmaların surətləri yer alır. Bu kitablar dünyanın müxtəlif aparıcı kitabxanalarından əldə olunaraq Milli Kitabxananın arsenalına daxil edilib. Sərgi ölkəmizdə VI dəfə təşkil edilən kitab sərgi-yarmarkası çərçivəsində açılıb. Bu gün kitab və kitabxana işinə ölkəmizdə lazımi səviyyədə dövlət tərəfindən diqqət göstərilir. Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsi artıq ənənə halını alıb.

Nazir vurğulayıb ki, İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur. Həmçinin dövlət başçısının daha bir Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Prezidentin İmadəddin Nəsiminin yubileyinin keçirilməsi haqqında Sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı hazırlanıb. Görkəmli şairin 650 illik yubileyi öncəsi, ötən il ədəbi-mədəni mühitdə geniş rezonans doğuran əhəmiyyətli bir layihə - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, sənət və mənəviyyat festivalı keçirilib. Bir gün sonra təşkil ediləcək növbəti eyniadlı festival yubiley ilinin ən yaddaqalan tədbirlərindən olacaq. Buna görə də "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" sərgisi Mədəniyyət Nazirliyinin ikinci dəfə keçiriləcək "Nəsimi - şeir, incəsənət və mənəviyyat" beynəlxalq festivalına hədiyyəsidir. Nazir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ölkənin ən böyük kitabxanasına gəlişini Fond tərəfindən kitaba, mütaliəyə və oxu mədəniyyətinə göstərilən diqqətin göstəricisi kimi qiymətləndirib.

Milli Kitabxananın direktoru Kərim Tahirov kitabxana barədə məlumatların, üç dildə çap olunmuş, ana haqqında şeirlərin yer aldığı kitabları Leyla Əliyevaya təqdim edib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Həmçinin Leyla Əliyevanın iştirakı ilə Milli Kitabxanada beynəlxalq əməkdaşlıq zalının da açılışı olub.

Açılışda 13 ölkənin Azərbaycandakı diplomatik nümayəndələrinin və kitabxanaların rəhbərləri də iştirak ediblər. Məlumat verilib ki, bu zalda həmin ölkələrin ədəbiyyat guşələri və kitabxanaları ilə birbaşa internet əlaqəsi yaradaraq faydalanmaq mümkündür. Qonaqlar Milli Kitabxananın oxu zalları ilə tanış olublar.

# VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı olub

***Sentyabrın 27-da Bakı İdman Sarayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı olub.***

AZƏRTAC xəbər verir ki, VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub.

Açılışda çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda keçirilən builki kitab sərgi-yarmarkasına böyük marağın olduğunu deyib. Bildirib ki, Azərbaycan xalqının mənəvi dünyasında kitab həmişə özünəməxsus dəyərli yer tutur: “Avesta”dan, “Kitabi-Dədə Qorqud” dastanından başlayaraq xalqımız öz ədəbiyyatına və mədəniyyətinə böyük diqqətlə yanaşıb. Biz böyük ədiblərimizin adı ilə həmişə fəxr etmişik. Onların yazdığı dəyərli bədii nümunələri əsrlərlə nəsildən-nəslə ötürərək bu günümüzə gətirib çatdırmışıq. Bu ədəbi nümunələr incəsənətin bütün sahələrinə sirayət edib. Bu əsərlər əsasında musiqilər yazılıb, tamaşalar səhnəyə qoyulub, rəsm əsərləri yaradılıb, filmlər çəkilib. Məqsədimiz ondan ibarətdir ki, xalqımızın kitaba sevgi ənənəsini qoruyaq, daha da inkişaf etdirək, gənclərimizə ötürək. Müasir texnoloji inqilablara baxmayaraq, kitaba sevgini yaşatmalıyıq. Kitab keçmişdə də olub, bu gün də var və gələcəkdə də olacaq. Çünki kitablar insan zəkasını zənginləşdirən xəzinədir”.




Əbülfəs Qarayev son illər ölkəmizdə poliqrafiya sənətinin inkişafından söz açaraq bildirib ki, Azərbaycan hər il beynəlxalq kitab sərgi-yarmarkalarında təmsil olunur və kitablarımız ən yüksək mükafatlara layiq görülür: “Sevindirici haldır ki, bu il Moskvada keçirilən MDB-nin “Kitab sənəti” beynəlxalq müsabiqəsində Nizami Gəncəvinin “Xosrov və Şirin” kitabı Qran-Pri mükafatını qazanıb. Həmçinin müxtəlif nominasiyalar üzrə müsabiqələrdə iştirak edən daha bir neçə kitabımız da mükafat və diplomlara layiq görülüb. Beynəlxalq kitab sərgilərinə təqdim olunan məhsullar arasında həm dövlət, həm özəl nəşriyyatların, eləcə də Heydər Əliyev Fondunun nəşrləri yer alır. Fondun bir sıra kitabları nəşriyyat işinin ən yaxşı nümunələri sırasındadır”.

Nazir qeyd edib ki, Azərbaycan dövləti nəşriyyat-poliqrafiya sahəsinin inkişafına qayğı göstərir: “Əsas məqsəd kitab nəşri sahəsində ən müasir texnologiyaların ölkəmizə gətirilməsinə nail olmaq, kitabın təbliği və yayılması, dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatların işıq üzü görməsinə yönəlmiş qərar və göstərişlərin icrasını vaxtında təmin etmək, gənc nəslin kitaba maraq və sevgisini daha da artırmaq, Azərbaycan oxucusunu dünyanın aparıcı nəşriyyatlarının məhsulları ilə tanış etməkdir. Bu istiqamətdə görülən işlər Prezident İlham Əliyevin Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi və dünya ədəbiyyatının Azərbaycan dilində çap edilməsi haqqında imzaladığı müvafiq sərəncamlara uyğun olaraq gerçəkləşdirilir”.



Son illər Azərbaycanda beynəlxalq tədbirlərin mütəmadi olaraq keçirilməsini yüksək qiymətləndirən Əbülfəs Qarayev belə tədbirlərin dünya ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılandığını qeyd edib. Bildirib ki, bu günlərdə davam edən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, sentyabrın 28-dən oktyabrın 1-dək təşkil olunacaq Nəsimi festivalı və digər tədbirlər ölkəmizin həyatında mühüm mədəni hadisə kimi yaddaşlara yazılacaq. Bu mühüm mədəniyyət tədbirləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində reallaşdırılır.




Vurğulayıb ki, sərgi-yarmarka zamanı 3 gün boyunca 81 yerli və 22 ölkədən 40 xarici nəşriyyat, poliqrafiya müəssisəsi, kitab evləri və s. qurumlar öz nəşrlərini sərgiləyəcək və kitablarının satışını həyata keçirəcəklər. Eyni zamanda, sərgi çərçivəsində tanınmış şair-yazıçıların, elm adamlarının iştirakı ilə çoxsaylı kitab təqdimatları, imza günləri və s. tədbirlər təşkil olunacaq. Poliqrafiya müəssisələrinin öz məhsulları ilə təmsil olunması diqqətə çatdıran nazir üç gün davam edəcək sərgi çərçivəsində bir sıra kitab təqdimatlarının, dəyirmi masaların, müzakirələrin aparılacağını bildirib.




Sərgi ilə bağlı təəssüratlarını bölüşən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov bütün oxucuları kitab bayramı münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsi artıq bir ənənə halını alıb. Kitabın bəşəri dəyər olduğunu qeyd edən Baş Nazirin müavini belə sərginin ölkəmizdə keçirilməsini yüksək qiymətləndirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində beynəlxalq kitab sərgiləri, eyni zamanda, digər beynəlxalq tədbirlər ölkəmizdə yüksək səviyyədə keçirilir.

Gələcəkdə bu yöndə daha da böyük işlər görüləcəyinə əminliyini ifadə edən Əli Əhmədov bildirib ki, iştirakçılar builki yarmarkada da sərgilənən kitablar vasitəsilə Azərbaycan xalqının tarixi, mədəniyyəti, ədəbiyyatı və bugünkü inkişaf səviyyəsi haqqında dolğun məlumat əldə edə biləcəklər.

“Bu sərgi-yarmarka hər şeydən əvvəl Azərbaycanda kitabın təbliğatı üçün həyata keçirilən əzəmətli bir təşəbbüsdür. Kitab bilik, mədəniyyət, cəmiyyətin inkişafı deməkdir. Bütövlükdə cəmiyyətin mədəni, intellektual, iqtisadi inkişafı öz başlanğıcını kitablardan götürür. Azərbaycanda qədimdən elmə, biliyə böyük önəm verilib. Bu həvəsin həyata keçirilməsində kitab misilsiz rol oynayıb. Bu gün Azərbaycan böyük intellektual sərvəti olan bir ölkədir. Biz bu günümüzü və gələcəyimizi də bu sərvətdən ayrıca təsəvvür etmirik. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, insan kapitalının inkişafı Azərbaycanın yüksəlişinin, tərəqqisinin əsas bünövrəsidir. Sevindirici haldır ki, Azərbaycanda həmişə kitaba hörmət və məhəbbətlə yanaşılıb. Güman edirəm ki, bu sərginin altıncı dəfə keçirilməsi də kitaba olan məhəbbətin ifadəsidir. Gənclərimiz mütaliə etməklə zəngin biliklər əldə edəcəklər, intellektual, mədəni səviyyələri yüksələcək və gələcəkdə ölkəmizin inkişafı naminə xidmətlər göstərmək qüdrətində olan layiqli vətəndaşlara çevriləcəklər. Gənc nəslin kitaba, biliklərə məhəbbətini daha da gücləndirməklə cəmiyyətimizi daim irəli apara biləcəyik. Bu mənada Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi layihələr böyük rol oynayır. Bu layihələrdə iştirak etməklə böyüyən nəslə kitaba və kitab vasitəsilə biliklərə, mədəniyyətə, dərin mənəviyyata, əxlaqa möhkəm hörmət və ehtiram sərgiləmiş olacağıq”, - deyə Baş Nazirin müavini vurğulayıb.

Sonra qonaqlar sərgi ilə yaxından tanış olublar.

“Təhsil”, “Şərq-Qərb”, “Adiloğlu”, “Yazıçı”, “Əli və Nino”, “Apostrof”, “Letterpress” və digər poliqrafiya müəssisələrinin son çap məhsullarının sərgiləndiyi bu yarmarkada Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) də ayrıca stendlə təmsil olunur. AZƏRTAC-ın iştirakçılara təqdim etdiyi nəşrlər sırasında son vaxtlar agentlik tərəfindən buraxılmış “İnformasiya yaradıcılığı, standartlar və yeni yanaşmalar”, “Müasir dünyanın informasiya şəbəkəsində AZƏRTAC-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri”, “Keçid cəmiyyətində demokratiya”, “Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu”, “20 Yanvar: tariximizin qanlı və şanlı səhifəsi”, “Dövlət siyasətinin informasiya təminatı”, “Türkdilli agentliklərin Bakı görüşü” və digər kitablar sərginin ziyarətçilərində daha böyük maraq doğurub.

Sərgidə, həmçinin İranlı Mühacirlər Cəmiyyəti öz stendləri ilə çıxış ediblər. Qeyd edək ki, sərgi sentyabrın 29-dək davam edəcək.

# Əli Əhmədov: "Mitinqdə insanların iştirakı ilə bağlı sorğunun nəticələri virtual müxalifətdən ötrü soyuq duş effekti yaratdı"



Azərbaycanın Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində "Virtual müxalifətin İflası" sərlövhəli məqalə yayımlamışdır. Əli Əhmədov qeyd etmişdir ki, cəmiyyət virtual müxalifətin yeni iflasının şahidi oldu: "Bir neçə həftədir virtual olaraq təbliğ edilən, az qala virtual müxalifətin "siyasi təntənəsinin başlanğıcı" adlandırılan 28 sentyabr mitinqi mifi gözlənilən sonuna çatdı. Mitinqə virtual "dəstəyin" real təcəssümünün olmaması, sadə şəkildə desək, cəmiyyətdə mitinq ab-havasının və mitinqdə iştirak etmək həvəsinin və həvəskarlarının olmaması üzündən müxalifət mitinqdən imtina etmək məcburiyyətində qaldı. Həmişə olduğu kimi, bir bəhanə uydurmağı da unutmadı. Lakin hər kəsə bir daha aydın oldu ki, müxalifətin yaratdığı virtual mitinq görüntüsünün cəmiyyətdəki real siyasi və ictimai proseslərlə heç bir əlaqəsi yoxdur. Virtuallıq və virtual müxalifətçiliyə ağır zərbə dəydi. Bu onların sözün həqiqi mənasında iflası deməkdir."

"Əslinə qalsa müxalifətin iflası Azərbaycanın siyasi reallığının yeni hadisəsi deyil. 26 ildir ənənəvi müxalifət iflas rejimində yaşayır və "fəaliyyət göstərir". Səbəbi də çox sadədir. Hakimiyyətdə olduğu müddətdə 13 ay ərzində törətdiyi əməllərə görə xalq tərəfindən devrilən partiyalar lazımi nəticələr çıxarmaq əvəzinə onları iflasa sürükləyən taktikalarını davam etdirməyə üstünlük verdilər və nəticədə sosial dayaqlarını bütünlüklə itirməli oldular, marginallaşdılar, cəmiyyətin mütləq əksəriyyətinin nəzərində yad ünsürlərə çevrildilər. Artıq neçə illərdir ki, ənənəvi müxalifətin yeganə fərqləndirici xüsusiyyəti nəyin bahasına olur olsun hakimiyyətə gəlməkdir. Sübut etməyə ehtiyac yoxdur ki, "nəyin bahasına olursa olsun hakimiyyətə gəlmək" istəyi demokratik cəmiyyətlərdə adi norma sayılan siyasi azadlıqlar anlayışının bütünlüklə təhrif olunması, zədələnməsidir və onun demokratiya anlayışı ilə hər hansı əlaqəsindən söhbət gedə bilməz. Bu, xaos və anarxiyaya aparan başlıca yoldur ki, vaxtilə sınaqdan keçirilib, insanlar onun ağır fəsadlarını yaşayıb və bu səbəbdən də bir daha təkrar olunmasına qətiyyən imkan verməz. Xalqın mandatını qazanmağın yeganə vasitəsi yalnız və yalnız inamdan, etimaddan ibarətdir. Ənənəvi müxalifətin haqqında söhbət etdiyimiz siyasi resursu çoxdan tükənib və bu gün onun xalqla bağlılığını sübuta yetirən nəyisə tapmaq qeyri-mümkündür. Əhalinin müxalifətə illərdir davam edən etinasızlığı ilk növbədə məhz xalqla heç bir əlaqəsinin olmamasının nəticəsi kimi başa düşülməlidir."-deyə, Əli Əhmədov bildirmişdir.

Yeni Azərbaycan Partiyasının Sədr müavini Əli Əhmədov sözügedən ənənəvi müxalifətin xeyli zamandır əsas etibarilə virtual aləmdə mövcud olduğunu qeyd edərək bildirmişdir ki, əslində bunun özü də həmin müxalifətin iflasının nəticəsi və təzahür forması sayıla bilər: "Ənənəvi müxalifətin virtuallığı təkcə real həyatdan ayrılmağında deyil, həm də manipulyasiyalarla özünü cəmiyyətə real güc kimi təqdim etməyə çalışmasında təzahür edir. Bu qəbildən olan çabalamalara bəlkə də fikir verməyə dəyməz. Əgər kimsə özünü virtual aləmdə, trolların ətrafında güc sahibi sanıb təsəlli tapırsa, qoy tapsın. Vaxtilə ölkədə keçirilən prezident seçkilərindən sonra məğlub müxalifət nümayəndəsinin təxminən bir il özünü "prezident" adlandırması kimi tragikomik hadisə yaddaşlardan silinməyib. İndi isə yeni bir tragikomik hadisə müşahidə olunmaqdadır: məlum virtual müxalifət anonim tərəfdarlarının manipulyasiyaları sayəsində özünə "ana müxalifət" adı qoyub. Cəmiyyət bütün bunlara öldürücü sükutla cavab verir. Lakin görünür, virtual müxalifət öz uydurduğu yalana özü inanmağa başlayıb. Belə olmasaydı bir neçə gün əvvəl virtual aləmdə sentyabr ayının 28-də keçirmək istədikləri mitinqdə insanların iştirakı ilə bağlı sorğu aparmaq niyyətinə düşməzdilər. Hesab edirəm ki, virtual müxalifətin bu addımı onlardan ötrü soyuq duş effekti yaratdı: sorğuda iştirak edənlərin təxminən 90 faizi mitinq çağırışına "yox" dedi və virtual müxalifət daha acınacaqlı mənzərəni görməmək üçün sorğuları dayandırmalı oldu. Buna iflasdan başqa ad vermək mümkün deyil. Lakin bizi maraqlandıran təkcə insanların əksəriyyətinin həmin sorğulara mənfi reaksiyası deyil, zira nəticənin belə olacağına əsla şübhəmiz yox idi. Bizim üçün sorğunun digər vacib nəticəsi müxalifətin virtuallığının daha bir əyani sübutu olmasındadır. Bir daha isbat olundu ki, ənənəvi müxalifətin əhali arasında dayaqları tamamilə sıfır həddindədir və onlar öz mövcudluğunu göstərmək üçün virtual görüntü yaratmaqdan savayı çarə tapa bilmirlər. Virtual şəkildə isə mitinq keçirmək mümkün olmadığından, bu cür cəhdlər iflasa gətirib çıxarır.

Virtuallıq müxalifətin əsl mahiyyətini örtbasdır etmək üsuludur. Virtual olaraq özlərini nə qədər demokrat, insan haqları fədaisi göstərməyə çalışsalar da real həyatdakı qəddar, əzazil sifətləri gec-tez üzə çıxır. Virtual "demokratların" ailə üzvlərinə qarşı illərlə siyasi məqsədlərlə gizlədilən qəddarlığı bir neçə gündür bəzi dairələrdə geniş müzakirə və ikrah obyektinə çevrilib. Bu hadisə virtual müxalifətin iflasının və ifşasının daha bir sübutu olmaqla yanaşı həm də riyakar mahiyyətinin qabarıq göstəricisidir.

Azərbaycan xalqı reallığı düzgün qiymətləndirməyi bacarır. İnkişaf, sabitlik, təhlükəsizlik həyatımızın başlıca reallığı, fundamental dəyərləridir. Bu dəyərlərə qarşı çıxanlar, ölkədə sabitliyi pozmağa cəhd göstərənlər həmişə olduğu kimi yenə də xalqın ən ağır qınağına tuş gəlirlər. İnsanlar rahat həyatını, inkişafı, əmin-amanlığı kimlərinsə boş vədlərinə qurban vermək niyyətində deyil. Prezident İlham Əliyevə, onun siyasətinə inam və etimad kifayət qədər yüksəkdir. Bu inam illərin təcrübəsinə söykənir və onu zəiflətmək heç kimə müyəssər olmayacaq. İnsanlar görür və inanır ki, bu günümüz nə qədər gözəldirsə, sabahımız daha gözəl olacaq."

# YAP Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib



Dünən YAP Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. İclasda 30 avqust 2019-cu il tarixində YAP-ın İcra Katibliyində partiyanın Səbail və Xətai rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə keçirilən müşavirədən irəli gələn vəzifələrin icra vəziyyəti və bələdiyyə seçkilərinə hazırlıqla bağlı qarşıda duran vəzifələr və digər məsələlər müzakirə edilib.

Çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı prof. Şəmsəddin Hacıyev diqqətə çatdırıb ki, Azərbaycanda aparılan düzgün, düşünülmüş siyasət və ölkə başçısı İlham Əliyevin idarəetmə məharətinin nəticəsidir ki, bu gün ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi, qibtə olunacaq səviyyədə ictimai-siyasi sabitlik, ölkənin iqtisadi inkişafının əsasını təşkil edən əlverişli sahibkarlıq və biznes mühiti, vətəndaş cəmiyyətinin bütün zəruri institutları formalaşmışdır. Deputat vurğulayıb ki, ölkəmizdə neft gəlirlərindən düzgün istifadə olunur, bu gəlirlər Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrinin inkişafına, xüsusilə, əhalinin rifahının, sosial həyat səviyyəsinin ildən-ilə yüksəlməsinə, insan kapitalının formalaşmasına sərf olunur: "Sosial paket çərçivəsində son illər aparılan sistemli islahatların nəticəsində, 4 milyon insanın əməkhaqlarının, sosial müavinətlərinin, ümumiyyətlə, ölkədə minimum əmək haqqının artması əhalinin həyat səviyyəsini daha da yüksəltmişdir."

Millət vəkili qeyd edib ki, Azərbaycanın uğurları, müstəqil iqtisadi siyasəti, dövlətimizin öz sərvətlərinin sahibi olması, ilk növbədə, bizim əzəli düşmənlərimizi və məlum xarici qüvvələri narahat edir. Bu səbəblə də ölkəmizə, dövlətimizə, iqtidar partiyasına qarşı yalan-yanlış məlumatlar, təhrif olunmuş göstəricilər, əsassız qarayaxmalar və hər cür şər-böhtan vasitəsilə, əsasən, mühacir müxalifəti tərəfindən, virtual olaraq, sosial şəbəkələrdə çirkin anti-Azərbaycan kampaniyaları təşkil olunur. İctimaiyyət bu kimi qarayaxma təbliğatının mənbələrini, sifarişçilərini, ölkədaxilində və xaricindəki icraçılarını çox gözəl bilir, bu səbəblə də, Azərbaycan cəmiyyəti hazırda heç bir sosial bazası olmayan və virtual məkanda reallığa uyğun gəlməyən təbliğat ilə məşğul olanlara layiqli şəkildə cavablar verir.

İclasda, yeni təsis edilən ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılıb. "Turizm işçiləri" (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi) ərazi ilk partiya təşkilatlarının qeydiyyata alınması barədə qərar yekdilliklə qəbul olunub.

*Rəfiqə KAMALQIZ*

# Azərbaycanın Xarici İşlər Nazirliyi: Lyon məhkəməsinin qərarını alqışlayırıq



Xarici İşlər Nazirliyi Fransa Respublikasının Lion/Lyon/ inzibati məhkəməsinin bu ölkənin Desin-Şarpyö/Decines-Charpieu şəhəri ilə Azərbaycanın işğal olunmuş Xocavənd rayonunun inzibati bölgələrindən biri və Sen-Etyen/Saint-Etienne/ şəhəri ilə Azərbaycanın işğal olunmuş Şuşa şəhəri arasında müvafiq olaraq 2017-ci il sentyabrın 25-də və 2018-ci il oktyabrın 21-də imzalanan qeyri-qanuni "saziş"lərin ləğv olunmasına dair cari ilin 19 sentyabr tarixli qərarını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatında qeyd olunur. Məlumatda deyilir: "Xatırladırıq ki, sözügedən qeyri-qanuni "sənədlər" Azərbaycan və Fransanın milli qanunvericiliyi, xüsusilə də Fransa Konstitusiyasının 73-cü maddəsi, "Ərazi Vahidləri Ümumi Məcəlləsi"nin maddələri və 2018-ci il 24 may tarixində Daxili işlər və Avropa və xarici işlər nazirləri tərəfindən imzalanmış sirkulyar sənədin müddəalarına zidd olaraq imzalanıb.

Bu günədək Fransanın şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət orqanları" arasında imzalanan 9 qanunsuz "müqavilə" Fransa Respublikasının müvafiq məhkəmə qərarları ilə ləğv olunub. Azərbaycan tərəfi hazırda qüvvədə qalan digər qeyri-qanuni "sənədlərin" də tezliklə Fransa məhkəmələri tərəfindən ləğv ediləcəyinə ümid edir".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

28 sentyabr 2019-cu il

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən, hər il sentyabrın 27-si ölkəmizdə “Turizm İşçiləri Günü” peşə bayramı kimi qeyd olunur.***

# Qədim və müasir Naxçıvan turizm mərkəzinə çevrilir



### Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı var

Muxtar respublikanın rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət və təbiət abidələri, mövcud sabitlik, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik olan yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır. 200-dən çox mineral bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşıb. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının “Qırmızı Kitabı”na daxil edilib və xüsusi mühafizəyə alınıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaradıb.





Ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan verib, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artıb. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınıb, su xətləri çəkilib, müasir infrastruktur obyektləri tikilib, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet istifadəyə verilib. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” Sərəncamı isə dayanıqlı turizm sektoru formalaşdırmaqla yanaşı, turistlərin bütün xidmətləri kompleks şəkildə istehlakına zəmin yaradacaqdır. Hazırda tikintisi davam edən Ağbulaq Xizək Mərkəzi muxtar respublikada qış turizminin inkişafına mühüm töhfə verəcək, yeni turizm növlərinin formalaşmasına gətirib çıxaracaq.

### Tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin apardığı araşdırmalara əsasən, muxtar respublikanın tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir. Ali Məclis Sədrinin müvafiq sərəncamına uyğun olaraq, muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınıb. 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunub. Son illər Möminə xatın türbəsi bərpa edilib, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Nuh Peyğəmbərin məzarüstü türbəsi, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki İmamzadə Kompleksi, “Came” məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Qazançı körpüsü, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Babək rayonundakı Nehrəm İmamzadəsi və digər tarixi abidələr bərpa olunub. Hazırda Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu türbəsi və Ərəfsə kəndindəki qədim körpü bərpa edilir.



### Aparılan abadlıq və quruculuq işləri muxtar respublikada turizmin inkişafı üçün geniş üfüqlər açıb

Abadlıq və quruculuq işləri muxtar respublikada turizmin inkişafı üçün geniş üfüqlər açıb. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılıb. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı müalicə turizminin inkişafı istiqamətində atılmış ən mühüm addımlardandır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən ən səmərəli şəkildə istifadəyə şərait yaradacaqdır. Həmçinin “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, pirlər, imamzadələr, qədim məscidlər muxtar respublikada dini və ziyarət turizminin, zəngin bitki örtüyü isə herbari turizminin inkişafına hərtərəfli şərait yaradır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı müşavirənin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoyub. Ali Məclis Sədrinin 2018-ci il 23 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Cari il sentyabrın 23-dən Turizm Departamentinin fəaliyyəti tarixi binada təmin edilib, müasir standartlara cavab verən maddi-texniki baza yaradılıb. Həmçinin departamentin nəzdində Milli Dəyərlər Muzeyi fəaliyyətə başlayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: “Bu gün muxtar respublikanın turizm potensialının artırılması istiqamətində lazımi işlər görülür. Tarixi abidələrin bərpası və milli dəyərlərimizin qorunub yaşadılması turizmin inkişafına mühüm töhfə verir. Muxtar respublikanın turizm potensialının tanıdılması və təbliği məqsədilə yaradılmış Turizm Departamentinin nəzdində Turizm-İnformasiya Mərkəzi, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi və Milli Dəyərlər Muzeyi fəaliyyət göstərir. Turizm Departamenti və Milli Dəyərlər Muzeyi Naxçıvan şəhərinin qədim tarixi binasında, Turizm-İnformasiya Mərkəzi Zaviyə-Mədrəsə binasında, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi isə bərpa olunmuş qədim Buxxanada yerləşir. Bütün bunlar muxtar respublikada turizm potensialının düzgün təbliğinə hesablanmışdır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, muxtar respublikaya turist təşviqi daha da artırılmalıdır”.

### Turizmin inkişafı həm də sabitliklə bağlıdır

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla bağlı olduğu kimi, həm də sabitliklə bağlıdır. Bu iki amilin muxtar respublikamızda mövcudluğu, qədim diyarımızın cinayətsiz region kimi tanınması turistlərin muxtar respublikaya gəlməsi üçün daha bir üstünlük yaradır. Naxçıvanın beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi təcrübəsi də vardır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması və ölkəmizin Gənclər Paytaxtı seçilməsi turizm imkanlarımızı nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olub. Bu sahədə görülən işlərin nəticəsidir ki, cari ilin 8 ayında muxtar respublikamıza 250 minə yaxın turist gəlib.

Turizm sahəsində kadr hazırlığı mühüm məsələlərdəndir. Muxtar respublikada bu amil diqqətdə saxlanılır. Hazırda Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində Turizm və otelçilik ixtisası üzrə kadr hazırlığı aparılır. Tədris ili ərzində tələbələrlə mütəmadi görüşlər keçirilir, Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyalar təşkil edilir, təcrübələr və maarifləndirici seminarlar təşkil olunur.

Əminliklə demək olar ki, muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaq.

***AZƏRTAC-ın Naxçıvan bürosu***

# Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir



Milli Məclisin deputatı Mirzəcan Xəlilovun yap.org.az-a müsahibəsi

***- Mirzəcan müəllim, məlum olduğu kimi, Azərbaycan inkişaf baxımından dünyada aparıcı yerlərdən birini tutur. Sizcə, bu inkişafın əsasında hansı amillər dayanır?***

- Bu gün Azərbaycan dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib.

Bütün bunların nəticəsidir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir.

Son 16 ildə ölkənin ümumi inkişafının təmin edilməsi üçün iki sahəyə xüsusi diqqət yetirildi. Birincisi, neftdən əldə edilən gəlirdən digər sahələrin inkişafı üçün istifadə edilməsi, ikincisi, bu məqsədə çatmaq üçün dərin islahatların aparılmasıdır. Paralel həyata keçirilən bu iqtisadi siyasət qısa müddətdə yüksək nəticələr verdi. Çox yaxşı haldır ki, son illər qeyri-neft sektorunun inkişafında dinamika var. Bu ilin 6 ayında da qeyri-neft sektorunda yüksək artım qeydə alınıb. Sözsüz ki, bu da aparılan uğurlu sosial-iqtisadi siyasətin nəticəsidir. Prezident İlham Əliyev iyul ayında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə cari ilin birinci yarısında ölkədə qazanılan uğurların yüksək olduğunu vurğulayaraq bildirib: "İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir".

***- Son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı böyük vüsət alıb. Bu sahənin perspektivləri haqqında nə deyə bilərsiniz?***

- Azərbaycanda aparılan iqtisadi islahatların əsas məqsədlərindən biri də qeyri-neft sektorunu əhəmiyyətli dərəcədə inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır. Odur ki, qeyri-neft sənayesinin inkişafına xüsusi önəm verilir. Bu məqsədlə 9 sənaye park və məhəllələrinin fəaliyyətə başlaması planlaşdırılıb. İndi onların bir çoxunda yüksək keyfiyyətli məhsul istehsal olunur, daxili bazarın tələbatı ödənilməklə bərabər, xarici bazara da ixrac edilir. Həmin sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub. Həmin layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Həmin layihələrin icrası sayəsində 1,5 milyard manatlıq məhsul istehsal olunaraq 300 milyon manatlığı ixrac edilib.

Millət vəkili kimi təmsil etdiyim Sumqayıt şəhərində də son illər yeni sənaye müəssisələri yaradılır. Bu sənaye müəssisələri müxtəlif məhsullar istehsal edir ki, həm daxili tələbatın təmin olunmasına xidmət edir, həm də xarici ölkələrə ixrac edilir. Hazırda bu sahədə işlər uğurla davam edir. Təbii ki, bu amil iqtisadiyyatımızı gücləndirir, ölkəmizə xarici valyutanın daxil olmasını artırır, bütövlükdə, qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayır. Bütün bunlar Sumqayıtın sənaye mərkəzi kimi rolunu daha da gücləndirir.

***- Azərbaycan eyni zamanda, mühüm nəqliyyat-tranzit qovşaqlarından biridir. Bu amil ölkəmizə nə kimi dividendlər qazandırır?***

- Əlverişli coğrafi mövqedə yerləşən, mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi tanınır. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir. Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyin təminatına töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir.

Bütün bunlar onu deməyə əsas verir ki, artıq nəqliyyat-logistika aspektlərində Azərbaycan regionun mərkəzi qovşağına çevrilib. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

Bu layihələr sırasında "Şimal-Cənub" dəhlizi də mühüm əhəmiyyət kəsb edir. Bu nəqliyyat dəhlizi bütün Avrasiya regionu üçün yeni imkanlar açacaq. Layihə Hindistandan gələn yüklərin gəmi vasitəsilə Süveyş kanalından keçib, Ümid burnunu dolanaraq İranın Bəndər Abbas limanına çatdırılmasını, buradan da onların dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə Rusiya və digər ölkələrə ötürülməsini nəzərdə tutur. Azərbaycan bu layihədə də fəal iştirak edərək onu milli maraqların təmin edilməsi baxımından əlverişli hesab edir.

Bu nəqliyyat dəhlizinin fəaliyyəti nəticəsində Avrasiya məkanında ölkələrin bir-biri ilə qarşılıqlı əlaqələri genişlənəcək. Layihə qonşu ölkələrin iqtisadi, siyasi sahədə əməkdaşlığını gücləndirəcək və onları dəmir halqalar kimi bir-birinə bağlayacaq. Belə ki, nəqliyyat dəhlizinin istifadəyə verilməsi möhkəm sistem yaradaraq Avrasiya ölkələrinin qarşılıqlı əlaqələrinin genişlənməsində mühüm rol oynayacaq. Bunun nəticəsində Azərbaycanın Fars körfəzinə, Oman dənizinə, Hind okeanına, Afrika ölkələrinə çıxışı asanlaşacaq, Rusiya və Mərkəzi Avropa ilə əməkdaşlıq imkanları xeyli artacaq. Azərbaycan tranzit ölkə kimi böyük iqtisadi səmərə ilə yanaşı, həm də böyük siyasi dividendlər əldə edəcək. Ölkəmiz regionda və dünyada aparıcı mövqeyini daha da möhkəmləndirəcək.

***- Bu gün ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Bu siyasət əhalinin rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur...***

- Ümumiyyətlə, ölkəmiz dinamik inkişaf yolunda inamla irəliləyir. Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində ölkəmizdə geniş abadlıq-quruculuq işləri aparılıb, paytaxt Bakının və regionlarımızın siması müasirləşib, əhəmiyyətli dərəcədə dəyişilib, yüksək infrastruktur təminatı yaradılıb, ölkənin maliyyə imkanları və valyuta ehtiyatları artıb və Azərbaycan qüdrətli dövlətə çevrilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Əhalinin təbii qazla təmin olunması 96 faizdir, əhalinin 75 faizi isə daimi içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub.

Azərbaycanda güclü sosial siyasət həyata keçirilir, vətəndaşlar dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunur. Ölkəmizdə inqilabi xarakterli sosial islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yaxşılaşması üçün həyata keçirdiyi işlərin miqyası getdikcə genişlənir. Yüz minlərlə məcburi köçkünə yeni evlər, şəhid ailələrinə, müharibə veteranlarına isə güzəştlər, müavinətlər, mənzillər, minik avtomobilləri verilib.

Aztəminatlı ailələrin sosial müdafiəsi daim gücləndirilir. Bu il ərzində müxtəlif kateqoriyadan olan insanların maaşlarının artırılması, minimum əməkhaqqının və pensiyanın artırılması buna nümunədir. Dövlətimizin başçısının vurğuladığı kimi bu proses davamlı olacaq. Bütövlükdə, dövlət başçısının rəhbərliyi altında aparılan islahatlar ölkəmizin "Doing Business 2019" hesabatında yeni rekorda imza artmasına imkan yaradıb. Azərbaycan 10 ən islahatçı ölkə siyahısında qərarlaşıb və MDB ölkələri arasında lider mövqe tutur. Bu da çox mühüm göstəricidir.

***- Mirzəcan müəllim, Azərbaycanın nailiyyətlərinə, sosial sahədə atılan mühüm addımlara rəğmən müəyyən dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Buna münasibətiniz necədir?***

- Çox təəssüf ki, belə hallar mövcuddur. Azərbaycan inkişaf etdikcə, gücləndikcə bundan qıcıqlanan dairələr ölkəmizə qarşı müxtəlif qarayaxma kampaniyasına başlayırlar. Xarici dairələr bu prosesdəki daxildəki radikal müxalifətdən, eləcə də "mühacir" müxalifətindən alət kimi istifadə edirlər.

Bu müxalifət bəzi xarici qurumların, eyni zamanda erməni lobbisinin vəsaiti hesabına ölkəni anarxiyaya, xaosa aparmaq istəyir. Onların missiyası yalnız bundan ibarətdir. Amma buna Azərbaycan dövləti və xalqı heç zaman izin verməyəcək. Ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür. Mən millət vəkili kimi seçicilərimlə görüşürəm. İnsanlar ölkəmizin inkişafından, həyata keçirilən sosial addımlardan çox razıdırlar və dövlətimizin başçısının siyasətini birmənalı şəkildə dəstəkləyirlər. Ona görə də, Azərbaycanda qarışıqlıq yaratmaq istəyənlər anlamalıdırlar ki, ölkəmizdə sabitlik, inkişaf və vətəndaş həmrəyliyi möhkəm əsaslar üzərində qurulub. Bu səbəbdən də onların niyyətləri iflasa uğrayacaq.

## "Onlar söyüş, şər-böhtan kampaniyası ilə heç bir nəticə əldə edə bilməyəcəklər"

***"Son vaxtlar biz görürük ki, həm ölkə daxilində, bəzi Qərb dövlətlərində yaşayan və "mühacir" həyatı sürən, eyni zamanda bugünkü radikal müxalifətlə birgə işləyən bəzi ünsürlər Azərbaycan dövlətinə, xalqına və rəhbərliyinə qarşı söyüş, şər-böhtan kampaniyası aparırlar". Bunları SİA-ya açıqlamasında millət vəkili Cavid Osmanov deyib.***



Millət vəkili bildirib ki, onların məqsədləri ölkəmizdə vəziyyəti yenidən 90-cı illərin əvvəlinə qaytarmaqdır: "Bu söyüş, şər-böhtan kampaniyasından ölkəmizdə anarxiya yaratmaq, sabitliyi pozmaq və eyni zamanda onların arxasında dayanan, ölkəmizi sevməyən, Azərbaycanın durmadan inkişaf etməsini gözü götürməyən qüvvələrdir. Təbii ki, bunların başında ilk növbədə erməni lobbisi və onlara dəstək olan müəyyən beynəlxalq qurumlar dayanır. Çalışdıqları da odur ki, ölkəmizin imicinə xələl gətirsin, Azərbaycan Prezidentinin apardığı məqsədyönlü siyasətə zərbə vursunlar. Lakin, onlar söyüş, şər-böhtan kampaniyasından heç bir şeyə nail ola bilməyəcəklər. Çünki, xalqımız Azərbaycan dövlətinin və prezidentinin yanındadır. 11 aprel 2018-ci ildə keçirilən prezident seçkiləri də buna sübutdur. Ondan sonra aparılan bir çox sorğular, o cümlədən Opinion Way-in bu yaxınlarda apardığı sorğular onu göstərdi ki, Azərbaycan xalqı cənab Prezidentimizin apardığı siyasəti dəstəkləyir və inanır".

**Aysel Məmmədova**

# Hüseyn Cavidin əsl bəraəti



***Tanrı bəşər övladını xəlq edən zaman bəzilərinin qismətinə hamar, bəzilərinə isə əzablı yollar yazmışdır. Taleyinə əzablı, ağrılı-acılı yollar düşənlərdən biri də Hüseyn Cavid olmuşdur. Bütün yaşam boyu əzablarla, haqsızlıqlarla qarşılaşmış, lakin sınmamış, əyilməmiş, yüksək mətinlik, dəyanət və dözüm göstərmiş, mübarizliyini əldən qoymamışdır. Hesab edirik ki, ulu Tanrı məhz sınmayacaq, əyilməyəcək insanlara bu qisməti yazır, onları taleyin sınaqlarından keçirir, istedadının daha da cilalanmasına yardımçı olur. Cavid əfəndinin yaradıcılığı əvvəllər rəğbətlə qarşılansa da, sonralar iblislərin sayəsində qasırğalara tuş gəldi.***

Hələ 30-cu illərin əvvəllərində Cavid adı dilində əzbər olanların müxtəlif rəsmi və qeyri-rəsmi məclislərdə onun yaradıcılığını göylərə qaldıran və şəninə ağızdolusu tərif deyənlərin bəziləri 1937-1956-cı illər arası (və hətta Turan Cavidin təbirincə desək, Cavidin ikinci bəraətinə, 1981-ci ilə qədər) dahi sənətkar haqqında olmazın hədyanlar, böhtanlar, iftiralar söyləməkdən və yazmaqdan belə utanmırdılar. Həqiqətən, ulu öndər Heydər Əliyevin imzası ilə 1981-ci ilin iyul ayının 21-də Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında verilən qərar ulu Cavidin ikinci bəraət sənədi olmuşdur. Respublikada Hüseyn Cavidin ədəbi irsini bir daha geniş surətdə öyrənmək və xatirəsini əbədiləşdirmək üçün həmin qərarda bir sıra mühüm işlərin görülməsi nəzərdə tutulmuşdur. Onun ədəbi irsinin toplanıb nəşr olunması, əsərlərinin müxtəlif teatrlarda tamaşaya qoyulması, Cavidə həsr olunmuş monoqrafiyaların, əsərlərinin 4 cilddə, habelə, rus dilində əsərlərinin 2 cilddə, ərəb əlifbası ilə 1 cilddə nəşr olunması, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə abidə ucaldılması, ev-muzeylərinin yaradılması və digər işlərin həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin dahi şairə olan sonsuz məhəbbətlə imzaladığı qərarda öz əksini tapmışdır.

Qərardan sonra Naxçıvanda Cavidin vaxtı ilə qədim Əlixan məhəlləsində bazar çayının kənarındakı yaşadığı evdə yaradılmış ev-muzeyi bütün cavidsevərlərin qibləgahına çevrildi.

1982-ci ildə kommunist rejiminin tüğyan etdiyi bir vaxtda Hüseyn Cavidin cəsədinin qalıqları Uzaq Sibirdən vətəninə gətirildikdən sonra bu sensasiyalı xəbər keçmiş Sovetlər birliyində Cavid irsinə marağı daha da artırdı. Bu maraq hətta yaxın-uzaq xarici ölkələrdə də diqqət mərkəzində oldu. Ulu öndərimiz Heydər Əliyevin şəxsi qayğısı və təşəbbüsü ilə həyata keçirilmiş bu hadisə tarixə qızıl hərflərlə yazıldı. Xalq şairi Milvarid Dilbazinin "Oğul qeyrəti" şeirində də ulu öndərin bu əvəzolunmaz işi öz əksini tapdı:

**Cavidi vətənə gətirən oğul,**
**Onu öz xalqına yetirən oğul,**
**Xalqının misilsiz qayğılarını**
**Öz çiyni üstünə götürən oğul,**
**Var olsun bu oğul qeyrətin sənin!**

Ulu öndərin şəxsi təşəbbüsü, qayğısı və göstərişi əsasında Cavidin nəşi onun doğulduğu qədim Naxçıvanda torpağa tapşırıldı. Uzaqgörən siyasətçi bu işi ilə Cavidin adının əbədiləşdirilməsi ilə bağlı planlarının bir hissəsini yerinə yetirdi və planın növbəti hissələri onun hakimiyyətə ikinci qayıdışından sonra həllini tapdı. Xalqımızın əvəzsiz oğlu hələ 1992-ci ildə Naxçıvanda Ali Məclisin Sədri işləyərkən hətta o qarma-qarışıq dövrdə Cavidi yaddan çıxarmadı və onun 110 illik yubileyini Muxtar Respublika səviyyəsində qeyd olunmasını təşkil etdi. Həmin gün yubiley tədbirində yaddaqalan çıxışı ilə Cavidə, onun irsinə yüksək dəyər verdi: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bütün Türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir, bir yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır".

Düşünülmüş və hissə-hissə həyata keçirilən planın növbəti hissəsi dahi Şairə ucaldılan möhtəşəm məqbərə oldu. Ulu öndər bu məqbərənin açılışında şəxsən iştirakı ilə Cavid əfəndiyə və onun timsalında Azərbaycan ədəbiyyatına və incəsənətinə, daha geniş anlamda Azərbaycan xalqına olan sevgisini və ehtiramını ifadə etdi. Məqbərənin açılışında Heydər Əliyev siyasətinin davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hüseyn Cavidin bu məqbərəsini "Heydər Əliyev dühasının bəhrəsi" adlandıraraq demişdir: "Möhtərəm Heydər Əliyev dühasının bəhrəsi olan Hüseyn Cavid türbəsi Əcəmi yaradıcılığına mənsub "Mömünə Xatun" məqbərəsinin davamıdır. Bununla belə Hüseyn Cavid məqbərə-türbəsində şairin özü ilə yanaşı, ailə üzvlərinin - ömür-gün yoldaşı Mişkinaz xanımın, oğlu Ərtoğrol Cavidin dəfn olunduğunu nəzərə alsaq, Cavidlər ailəsi xatirə kompleksinin dünya mədəniyyətinin bənzərsiz, əvəzsiz nümunələrindən biri olduğu sübut edilir".

Məqbərənin açılış mərasimində iştirak edən görkəmli ziyalılar, elm və mədəniyyət xadimləri, hətta qonşu dövlətlərdən gəlmiş qonaqlar ulu öndərin bu misilsiz xidmətini xüsusi qeyd etmişlər. Görkəmli ədibin qızı Turan Cavid Cavidlər ailəsi adından çıxış edərək demişdir: "Hörmətli, əziz və dəyərli Prezidentim! Düz beş gün sonra Cavidin Sibirdən gətirilərək Naxçıvan torpağında dəfn olunmasının 14 ili tamam olur. 1982-ci ildə Cavidin cənazəsi gətirərək bu qeyri-adi hadisənin əks-sədası çox uzaqlara yayılmışdır. Başqa şəhərlərdən bu xəbərin dəqiqliyini öyrənmək istəyənlər sualı belə qoyurdular ki, yəqin bu hörmətli Heydər Əliyevin xidmətidir? Bunun da qısa bir cavabı var: "Şübhəsiz ki, elədir".

2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qayğısı ilə muzeydə yenidən əsaslı təmir və bərpa işləri aparılaraq muzey öz əvvəlki görkəminə qaytarılmışdır. Muzeyin ekspozisiyası tamam dəyişdirilərək yenidən qurulmuş, maddi-texniki bazası zənginləşdirilmişdir.

Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə böyük ədibin anadan olmasının 120 illik yubileyi Azərbaycanda geniş qeyd olunmuş, bir-birindən maraqlı tədbirlərlə, konfranslar, gecələr, disputlar, kitab sərgiləri, şeir müsabiqələri keçirilmiş, əsərləri nəşr olunmuşdur.

Nəhayət, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, onun bütün ideyalarını, arzularını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" 2007-ci il 17 aprel tarixli sərəncamının Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin il may ayının 15-də imzaladığı sərəncamla təsdiq edilmiş "tədbirlər planı"na uyğun olaraq müxtəlif yubiley tədbirləri həyata keçirilmişdir. Muxtar respublikanın ali, orta ixtisas, ümumtəhsil məktəblərində, muzeylərdə, kitabxanalarda, klublarda, mədəniyyət evlərində Hüseyn Cavidin yaradıcılığına aid guşələr yaradılmış, kitab sərgiləri, gecələr görüşlər təşkil edilmişdir. Tədbirlər planına uyğun olaraq ötən il oktyabr ayının 24-də Naxçıvan şəhərində şair-dramaturq Hüseyn Cavidin 125 illik yubileyinə həsr olunmuş zirvə tədbiri keçirmişdir.

Ölkə Prezidenti İlham Əliyevin dahi şair-dramaturq Hüseyn Cavidin 125 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncama əsasən Hüseyn Cavidin ev-muzeyində də geniş tədbirlər planı tərtib edilmiş və həmin plana əsasən "Hüseyn Cavid-125" yubiley sərgisi təşkil edilərək Muxtar Respublikanın mədəni-maarif müəssisələrində nümayiş etdirilmişdir. Muzey ekspozisiyası fonda olan yeni eksponatlarla zənginləşdirilmiş, yeni guşələr yaradılmışdır. Yubileylə əlaqədar evmuzeydə elmi-nəzəri konfranslar, disputlar, gecələr, görüşlər, sərgilər, şeir gecələri təşkil olunmuşdur. 2007-ci il may ayının 7-dən 12-dək qardaş Türkiyənin İstanbul şəhərində Hüseyn Cavidin və Kazım Qarabəkir Paşanın anadan olmalarının 125 illik yubileyi və onların tarixi dostluqlarına həsr olunmuş tədbirlər keçirilmişdir. Həmin tədbirlərdə evmuzeyi tərəfindən 6 lövhədən ibarət, yüksək keyfiyyətli "Hüseyn Cavid-125" sərgisi 5 gün ərzində nümayiş olunmuş və tədbir iştirakçılarına geniş məlumat verilmişdir.

Dahi şair-dramaturq Hüseyn Cavidə olan sonsuz məhəbbəti, diqqət və qayğısının nəticəsidir ki, cənab Prezident görkəmli ədibin 16 fevral 2012-ci ildə 130, 24 oktyabr 2017-ci ildə 135 illik yubileylərinn keçirilməsi ilə əlaqədar sərəncamlar imzalamış və bu sərəncamlara əsasən ölkədə və ölkədənkənar yerlərdə müxtəlif tədbirlər keçirilmişdir.

Son illər muzey əməkdaşlarının gərgin axtarışları və səyi nəticəsində muzeyin fondu xeyli zənginləşmişdir. Hazırda bu günə qədər muzey fondunda 9500-dən artıq eksponat qorunur. Bu eksponatlar içərisində "Turan Cavid qadın mərkəzi, ictimai birliyi"nin sədri mərhum Sevda xanım Cəfərovanın muzeyə təqdim etdiyi Turan Cavidə məxsus stolüstü saat, Hüseyn Cavidin böyük bacısı Fatma xanıma məxsus küləcə (nəticəsi Fatma xanım tərəfindən hədiyyə edilib) Hüseyn Cavidin böyük qardaşı, Şeyx Məhəmməd Rasizadənin həyat yoldaşı Zəri xanımın Yusif bəy Vəzirovun həyat yoldaşı Fatma xanıma hədiyyə etdiyi 4 ədəd boşqab və 1 ədəd fincan nəlbəkisi ilə (mərhum teatrşünas Cəlil Vəzirovun həyat yoldaşı Fövziyyə xanım tərəfindən muzeyə hədiyyə edilmişdir) Xüsusi qeyd etmək olar.

Bunlardan əlavə ədibin son illərdə nəfis şəkildə nəşr edilmiş 2 variantda müxtəlif illərdə nəşr edilmiş 5 cildlik "Seçilmiş əsərləri" Akademik Kamal Abdullanın rəhbərliyi ilə nəşr edilmiş 3 cildlik "Seçilmiş əsərləri" Akademik İsa Həbibbəylinin "Ədəbi-tarixi yaddaş və müasirlik", " XX əsrin əvvəlləri Azərbaycan yazıçıları", Akademik Rafael Hüseynovun "Əbədi Cavid", Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Kamran Əliyevin "Hüseyn Cavid: həyat və yaradıcılığı", professor Cəlal Qasımovun "Abdulla Surun həyat və yaradıcılığı", "Cavidi məhbəsə aparan yol", "Ədəbi məhkəmələr", professor Hüseyn Həşimlinin "Azərbaycan poeziyasında sonet və terset", "Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri", Cavidşünas İskəndər Atillanın "Əsrin şairi" topluları "Mərd olun, mərd ölün", Filologiya üzrə elmlər doktoru Əjdər Tağıoğlunun "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" Pedaqogika üzrə elmlər doktoru Kamal Camallının "Hüseyn Cavid və məktəb", Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımovun "Cavid poe-



ziya teatrı", Filologiya üzrə fəlsəfə doktoru Çinarə Rzayevanın "Hüseyn Cavid dilinin leksikası", "Hüseyn Cavid və folklor", mərhum şair Əbülfəz Naxçıvanlının Cavidlərə həsr etdiyi "Tale buruluğanı", yazıçı dramaturq Həsənəli Eyvazlının "Ərtoğrol Cavid yaxud, bir aiənin dramı" kitablarını xüsusi qeyd etmək olar. Bütün bunlarla yanaşı Cavidşünas Azər Turanın muzeyə təqdim etdiyi Ərtoğrol Cavidin hərbi xidmət illərində 1942-ci ilin 28 fevralından başlayaraq 1943-cü ilin 7 oktyabr tarixinə kimi Abxaziyadan, Tbilisi Hospitalından və Naxçıvandan Bakıya - anası Mişkinaz Cavidə və bacısı Turan Cavidə yazdığı 71 məktubu xüsusi qeyd etmək olar. Bu məktublar muzeyin nadir eksponatları kimi çox qiymətli əhəmiyyət kəsb edir.

Cavidin ev muzeyi ədəbiyyat profilli bir çox muzeylərlə əlaqəsini davam etdirir. Muzeyin Cavidin Bakı şəhərindəki ev muzeyi ilə əlaqəsi daha genişdir. Hələ mərhum Turan Cavid işlədiyi illərdə muzeyimizə daim qayğı göstərmiş, Cavidin Naxçıvan dövrü ilə bağlı eksponatları, sənədləri, fotoşəkilləri muzeyə bağışlanmış və hətta muzey yaradılarkən tez-tez Naxçıvana gələrək dəyərli məsləhətlərini vermişdir. İndi də bu iş bu köməklik davam edir. Muzeyin direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının köməkliyi ilə fotoşəkillər, sənədlər, afişa və proqramlar, qəzetlər, jurnallar və onlarca kitablar muzeyimizə bağışlanmışdır. Bunlardan Gülbəniz Babaxanlının "Azərbaycan ədəbi fikri və Hüseyn Cavid" - 2 cilddə, "Heydər Əliyev və Hüseyn Cavid", onun rəhbərliyi və layihələri əsasında nəşr edilmiş 13 cilddə "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid", 10 cilddə "Cavidşünaslıq" toplusu, "Hüseyn Cavid: həyatı və sənət yolu", "Hüseyn Cavid və Abdulla Şaiq", "Ədəbiyyat dərsləri", "Hüseyn Cavid və seçmə aforizmlər", Azərbaycan və ingilis dillərində "Turan Cavid: ömür salnaməsi" və həmin muzeyin əməkdaşı Nigar Babaxanovanın fransız dilinə tərcümə etdiyi "Hüseyn Cavid - məhəbbətdir ən böyük din" və s. kitabları xüsusi qeyd etmək olar.

Çox sevindirici haldır ki, 2013-cü ildə İstanbulda "Kusena" yayınları nəşriyyatında ilk dəfə olaraq türk dilində Hüseyn Cavidin "seçilmiş əsərləri" nəşr olunaraq həmin nəşriyyatın əməkdaşı Selma Sukas tərəfindən muzeyimizə hədiyyə olaraq göndərilmişdir.

"Kaspi" qəzetinin və eyni adlı təhsil şirkətinin layihəsi ilə İran İslam Respublikasında Əkbər H.Əlyarın fars dilinə tərcüməsi ilə Hüseyn Cavidin 2013-cü ildə "Peyğəmbər" 2015-ci ildə "Şeyx Sənan", 2016-cı ildə "Hüseyn Cavid xəzinəsindən: Peyğəmbər, Maral, Şeyx Sənan", 2019-cu ildə "Maral" və 2018-ci ildə özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində böyük ədibin özbək dilində "Seçilmiş əsərləri" nəşr olunmuşdur. Eyni zamanda "Hüseyn Cavid Vətənə qayıdış" fotoalbomu və eyni adlı məqalələr toplusu da "Kaspi" təhsil şirkətinin və "Kaspi" qəzetinin layihəsi əsasında 2015-ci ildə işıq üzü görmüşdür.

Adları göstərilən kitablar "Kaspi" qəzetinin təsisçisi, "Kaspi" təhsil şirkətinin rəhbəri filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva tərəfindən muzeyimizə hədiyyə edilmişdir.

Naxçıvan Muxtar Respublikasında yaşayıb yaradan rəssamların muzeyimizlə əlaqələri genişdir. Naxçıvan Rəssamlar Birliyinin Sədri, Azərbaycan Respublikasının Əməkdar Rəssamı Ülviyyə Həmzəyeva "Hüseyn Cavid", "Xatirələr", Azərbaycan Respublikasının Əməkdar Rəssamı Telman Abdinov "Mən təzad elçisiyəm", Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı Həbibə Allahverdiyeva "Həqiqət aşiqi", Naxçıvan Rəssamlar Birliyinin üzvü Qəhrəman Tağıyev "Hüseyn Cavid məqbərəsi" əsərlərini böyük məhəbbətlə ev muzeyinə hədiyyə etmişlər.

Ev-muzeyi Cavidsevərləri yaradıcılıq və tədqiqat mərkəzinə çevrilmişdir. Yerli ziyalılar, alimlər, şairlər və ümumiyyətlə, bütün Cavid sənətinin pərəstişkarları muzeylə daim əlaqə saxlayaraq öz köməkliklərini əsirgəmirlər. Yazıçı-publisist Əbülfəz Əsgərli, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov, filologiya üzrə elmlər doktoru Xanəli Kərimli, Elxan Yurdoğlu, tarixçi alim Musa Quliyev, musiqişünas Leyla Əlimərdanova, jurnalist Zakir Rəhilinin xidmətlərini xüsusi qeyd etmək olar.

Muzey fəaliyyətə başlayandan bəri məktəblərdə Hüseyn Cavidin həyat və fəaliyyətinin tədrisi üçün ayrılmış saatlardan birini məhz muzeyin ekspozisiyasında, buranın eksponatları ilə əyani təmasda olaraq keçmək təşəbbüsünə əl atılmış və bu iş öz müsbət nəticəsini vermişdir. Naxçıvan şəhərində olan məktəblərlə keçirilən belə "açıq dərslər"in keçirilməsi üçün muzey əməkdaşları əlavə tədbirlər işləyib hazırlamışlar.

Muzeydə tez-tez Cavidşünas alimlərlə, şair və yazıçılarla görüşlər və disputlar, dəyirmi masalar, bədii gecələr təşkil edilir.

İndi muzeyin əlaqələri və coğrafiyası daha da genişdir. Belə ki, ev-muzey Cavid sorağıyla, Cavid izi ilə tədbirlərini, görüşlərini, axtarışlarını davam etdirir. Və Cavid irsini qorumağa və təbliğ etməyə çağırır.

Cavid sənəti ölməzdir. Onu qorumaq bugünkü gəncliyə çatdırmaq bizim müqəddəs borcumuz olur. Çünki Cavid sənəti insanları gözəlliyə, paklığa, idraka, işığa, bir sözlə milli mənəviyyata səsləyir.

***Bəhruz Axundov,***
***Hüseyn Cavidin Ev-muzeyi və Xatirə Kompleksinin direktoru,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar Mədəniyyət işçisi***

# İsmət Çətin: "Bakıda keçirilən ilk Türk Qurultayı bütün türk dünyasına yayılan bir işıq oldu"

***Hələ Sovet İttifaqı dönəmində Bakıda keçirilən ilk Türk Qurultayı bütün türk dünyasına yayılan bir işıq oldu. Bu istiqamətdə Azərbaycan və Türkiyədə başlanmış işlərin nəticəsi olaraq İstanbulda Türk Araşdırması İnstitutu yarandı. Bununla da türk dili və mədəniyyəti daha dərindən öyrənilməyə başlandı.***



Bu sözləri AZƏRTAC-a müsahibəsində Qazi Universitetinin professoru, türkoloq İsmət Çətin söyləyib. XIV Beynəlxalq Böyük Türk Qurultayı və 87-ci Türk Dili Bayramının türk dili və mədəniyyətinin öyrənilməsi və təbliği baxımından önəm kəsb etdiyini deyən İsmət Çətin eyni dil və eyni düşüncə ətrafında birləşməyin əsas məqamlardan olduğunu qeyd edib: "Bu qurultay hər dəfə bir ölkədə keçirilir və bütün dünyadakı türkoloqları bir araya gətirir. Bakıda təşkil olunan builki tədbirdə Türkiyə və Azərbaycanla yanaşı, Belçika, İraq, Qırğızıstan, Macarıstan, Böyük Britaniya və digər ölkələrdən də türkoloqlar iştirak edirlər. Dil sadəcə danışıq və yazı vasitəsi deyil, eyni zamanda, arxitektura funksiyasını yerinə yetirir. Keçirilən bütün qurultaylar faydalı olub, bundan sonra da faydalı olacaq".

İsmət Çətin dünyanın ən zəngin dillərdən olan ortaq dilimizə, mədəniyyətimizə hamılıqla sahib çıxmağın, onu yad təsirlərdən qorumağın vacibliyini vurğulayaraq deyib ki, bu, Türk dünyasının varlığı və birliyi üçün çox önəmli şərtdir.



# Polşanın kulinariya portalı Azərbaycan qutablarından yazır

Polşanın pl.fartice.com kulinariya portalında Azərbaycan mətbəxinin vazkeçilməzlərindən olan qutablar barədə məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, həm ət sevənlərin, həm də vegetarianların zövqünü oxşayacaq və turistlərin də sevdiyi qutabın ona yaxın növü var. Məqalədə qutabın hazırlanma forması da izah olunub və polşalı turistlərin bu yeməyi Azərbaycana gedib dadmaları tövsiyə edilib. Qeyd olunur ki, sadə xəmirin içinə ət, içalat, göyərti, pendir, balqabaq, kartof əlavə edib həm qızartmaq, həm də sobada bişirmək olar.



# YAP Binəqədi rayon ərazi ilk partiya təşkilatında iclas keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Xocasən qəsəbəsi, Sumqayıt şossesi 3-cü km, ünvanlı ərazi ilk partiya təşkilatında iclas keçirilib. İclası giriş sözü ilə ərazi ilk partiya təşkilatının sədri Cümşüd Bağırov açaraq, kompleksin ərazisində aparılan abadlıq və yenidənqurma işləri haqqında məlumat verib. Bu işlərin davamlı olmasından, ölkə rəhbərinin bütün sahələrə olduğu kimi, nəqliyyat qovşaqlarının yenilənməsi və inkişafına olan qayğısından söz açıb və bu cür tədbirlərin, görüşlərin davamlı olmasının vacibliyini bildirib.***

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxışında son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkəmizdə aparılan sosial və iqtisadi, struktur və kadr islahatları nəticəsində, əldə edilən uğurlardan ətraflı söz açıb. Bu uğurların əldə edilməsində və təbliğində Yeni Azərbaycan Partiyasının rolunu vurğulayıb. R.Göyüşov bildirib ki, bu yaxınlarda YAP nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub. Görüşdə Çin Xalq Partiyasının Yeni Azərbaycan Partiyası ilə münasibətlərindən, qarşılıqlı əlaqələrdən və birgə tədbirlərdən geniş məlumat verib. R.Göyüşov, eyni zamanda, ölkəmizdə əldə edilən uğurları və nailiyyətləri gözü götürməyən anti-Azərbaycan qüvvələrin, istər ölkə daxilində, istərsə də ölkə xaricində dövlətimizin əleyhinə çirkin təbliğat və qarayaxma kampaniyaları apardıqlarını qeyd edib. YAP rayon təşkilatının sədri belə kampaniyalara qarşı hər bir YAP üzvünün mübarizə aparmasının vacibliyini bildirib.

Sonra iclas diskussiya şəklində davam etdirilib. Sonda partiya sıralarına qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

***ZÜMRÜD BAYRAMOVA***

# Bu tədris ili üzrə 7 minədək müəllim işə qəbul olunub




2019-2020-ci tədris ili üzrə müddətsiz müqavilə əsasında 3 min 260 müəllim işə qəbul olunub. Onlardan 973 nəfər həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə, 2 min 287 nəfər isə həvəsləndirmə tədbirləri tətbiq edilən məktəblərə işə qəbul edilib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, indiyədək 3 min 615 nəfər müddətli müqavilə əsasında müəllim adını qazanıb. Hazırda müddətli müqavilə əsasında müəllimlərin işə qəbulu prosesi davam edir. Qeyd edək ki, ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Kənd məktəblərində fəaliyyətə başlayan gənc müəllimlər üçün stimullaşdırıcı tədbirlər tətbiq edilib, 10 mindən çox müəllim bu tədbirlərdən faydalanıb.

# Sosial şəbəkələr gənclər üçün vaxt itkisi yox, asudə vaxtın səmərəli təşkili üçün vasitə olmalıdır

## *Naqif Həmzəyev: "Gənclər asudə vaxtlarını düzgün qiymətləndirməyi bacarmalıdırlar"*



YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyevin gənc partiya fəalları ilə budəfəki görüşü asudə vaxtın düzgün və səmərəli təşkili ilə bağlı olub. "Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual gənclərin yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır" deyən millət vəkili ölkəmizdə dövlət-gənclər siyasətinin uğurla həyata keçirilməsindən, son illər bu sahədə əldə olunan nailiyyətlərdən söz açıb. Bu nailiyyətlərin qazanılmasında gənclərin də böyük rolu olduğunu diqqətə çatdıran millət vəkili bir ölkənin gənc təbəqəsinin dünyagörüşlü və intellektual formalaşmasında onun asudə vaxtını necə keçirməsinin də böyük əhəmiyyət daşıdığını qeyd edib.

N.Həmzəyev bildirib ki, asudə vaxtına düzgün nəzarət edən gənc sabah həyatını və taleyini düzgün quracaq. Təəssüf ki, gənclərin əksəriyyəti boş vaxtlarını səmərəli formada keçirə bilmirlər. Saatlarla telefondan, həyatımızın ayrılmaz parçasına çevrilən sosial şəbəkələrdən asılı qalmaq, az mütaliə etmək, kimi hallar gənclərin dünyagörüşünün formalaşmasında izsiz qalmır. Gənclər asudə vaxtlarını düzgün qiymətləndirməyi bacarmalıdırlar. Təmiz havada gəzmək, idmanla məşğul olmaq, hərəkətli və ya intellektual oyunlarla məşğul olmaq gənclərin sağlamlığı və dünyagörüşünün artırılmasında çox vacibdir.

"Sosial şəbəkələr gənclər üçün vaxt itkisi yox, asudə vaxtın səmərəli təşkili üçün vasitə olmalıdır" deyə qeyd edən N.Həmzəyev gənclərə Azərbaycanın apardığı haqlı mübarizənin sosial şəbəkələr vasitəsi ilə təbliğ etmələrini, ölkəmizlə bağlı doğru və dolğun informasiyaların yayılmasında fəal olmalarını məsləhət görüb.

Tədbir zamanı asudə vaxtlarını səmərəli keçirmək hər bir gəncin gələcəyi üçün çox vacib olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, asudə vaxtın düzgün təşkili gənclərin fiziki, psixoloji və şəxsi keyfiyyətlərin formalaşmasına kömək edir, təhsilə və biliyə olan marağı artırır. Dövlət tərəfindən gənclərin asudə vaxtlarının səmərəli təşkili, gənclərə verilən dəstəyin onların milli şüurunun inkişafına və vətənpərvərlik hisslərinin artmasında xüsusi təsiri var.

Geniş diskussiya şəraitində gənclər onları düşündürən məsələlərlə bağlı millət vəkilinə suallar ünvanlayıb, məsləhətlər alıb, ideya və təkliflərini səsləndiriblər.

***Rövşən RƏSULOV***

# "Nar"ın dəstəyilə eşitmə məhdudiyyətli insanlar artıq peşə sahibləridir

23-29 sentyabr BMT-nin qərarı ilə Beynəlxalq Eşitmə Məhdudiyyətli İnsanlar Həftəsində "Nar" eşitmə və nitq məhdudiyyətli insanlar üçün keçirdiyi "Təlim məktəbi" layihəsinin yekunları ilə bağlı təqdimat edib. Mobil operator eşitmə məhdudiyyətli insanların müxtəlif peşələrə yiyələnməsi və işlə təmin olunması məqsədilə keçirdiyi təlimlərin iştirakçılarına sertifikatlar təqdim edib. Qeyd edək ki, "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşan "Təlim məktəbi" layihəsi 4 ay davam edib. Təlimdə ümumilikdə 45 nəfər iştirak edib və onlar təcrübəli mütəxəssislər tərəfindən aşpaz, şirniyyat ustası və motorçu ixtisaslarına yiyələniblər. Layihə eşitmə məhdudiyyətli insanların işlə təmin olunmasına da kömək edib. Belə ki, artıq iştirakçıların bir neçəsi işlə təmin olunub.

"Nar" 4 ilə yaxındır ki, eşitmə və nitq məhdudiyyətli insanların müxtəlif peşələrə yiyələnməsi məqsədilə təlimlər təşkil edir. Bu cür təlimlər keçirməkdə məqsədimiz onlara həyatlarını maddi və mənəvi cəhətdən təmin etməsinə dəstək olmaqdır. "Nar" olaraq müxtəlif sosial layihələr reallaşdırmaqla cəmiyyətimizə töhfə veririk. "Nar" olaraq insanların sosial həyatında yararlı şirkət olduğumuza görə qürur duyuruq", - deyə "Nar"-ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib.

"Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abasov isə bildirib ki, bu layihədə iştirak edənlər iş bacarıqlarını artırmaqla cəmiyyətimizə fayda verdiklərini hiss edəcəklər: "Karlara Dəstək" İctimai Birliyinin yaranmasında əsas məqsəd eşitmə və nitq məhdudiyyətli insanların sosial rifahını yaxşılaşdırmaqdır. "Nar"-ın dəstəyilə həyata keçirilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyətli vətəndaşların istədikləri peşəyə yiyələnmələri




və həmin ixtisas üzrə işlə təmin olunmasına böyük təkandır. Bu layihəni ərsəyə gətirən "Nar"-a təşəkkür edirəm".

Fiziki məhdudiyyətli insanlara qayğını, təhsil və maarifləmənin inkişafını, eyni zamanda vətənə bağlılığı təşviq edən "Nar", son illər ərzində həyata keçirdiyi sosial layihələrlə bağlı da təqdimat edib. Qeyd edək ki, mobil operator korporativ sosial məsuliyyət (KSM) layihəsi çərçivəsində cəmiyyət üçün bir çox əhəmiyyətli layihələr reallaşdırıb. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azərbaycanın yer adları zaman-zaman ermənilərin soyqırımına məruz qalıb

***Ermənistan tərəfindən 20 faiz torpaqları işğal edilmiş Azərbaycan öz səsini dünya ictimaiyyətinə daha intensiv şəkildə çatdıraraq, təbliğatı daha da gücləndirir, ermənilərin işğalçılıq siyasətini, terrorçuluq fəaliyyətini, 1 milyon insanın qaçqınlıq problemini Avropa dövlətlərinə, ümumilikdə, dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırır. Tarix boyu işğalçılıq siyasətini həyata keçirməyə çalışan ermənilər azərbaycanlılara qarşı hər bir sahədə düşmənçilik edərək, məkrli planlarını həyata keçirməyə cəhd göstərirlər. Onlar silahla torpaqlarımızı işğal edir, eləcə də, mənəvi abidələrimizə də zərbə vurmaq yolu ilə vandal siyasətlərini davam etdirirlər. İkitərfli mübarizədə siyasi və ideoloji müharibədə erməni kimliyi özünü büruzə vermiş olur. Əlbəttə ki, bu ideoloji müharibədə məqsəd xalqımızın tarixi kökünü saxtalaşdırmaqdır.***

Belə ideoloji müharibələrdən biri də xalqımızın yaşadığı torpaqların qədim sakinləri olduğunu göstərən coğrafi adların dəyişdirilməsi ilə müşahidə olunur. Bu gün isə, torpaqlarımızın 20 faizi onların əlində olduğundan, bu siyasəti daha "peşəkarlıqla" həyata keçirməyə nail olurlar. Yaxın keçmişimizin olayları nəticəsində, vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr zamanı Ermənistanda yaşayan azərbaycanlılar 1988-89-cu illərdə SSRİ dövlətinin birbaşa köməyi və yardımı ilə öz tarixi-etnik torpaqlarından deportasiya olundular. Ermənilər, qısa bir müddət ərzində, iki ildən sonra Ermənistan prezidentinin fərmanı ilə 1988-89-cu ilə qədər azərbaycanlıların yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu "rəsmi sənəd" 1991-ci ili əks etdirir.

Bildiyimiz kimi, Ermənistanda türk mənşəli toponimlərin dəyişdirilməsi, iki yüz ildən artıq bir zamanı əhatə edir. Ermənilərin tarixi torpaqları olmadığından, özlərini təsdiqləmək məqsədi ilə müxtəlif məqamlara əl atır, öz tarixi keçmişlərini oğurladıqları və hiylə ilə əldə etdikləri sənədlər üzərində qurmağa çalışırdılar. Nə qədər inandırıcı addımlar atmağa cəhd etsələr də, bunun əsasında hiylə durduğundan, saxtakarlıqlarının tarix qarşısında təsdiqinə nail ola bilmirlər. Dəlil və mənbələr əsas götürülərək, göstərilən həqiqətlərə inandırıcı sübut olmadığından, cəhdləri birmənalı qarşılanmır. Bəllidir ki, ermənilər indiki Ermənistan ərazisinə köçürülmüş xalqdır. Bu da, bir həqiqətdir ki, XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idi. Tarixçi-alimlər ermənlərin Azərbaycan toponimlərinə təcavüzünü dövrlərə bölərək, bu istiqamətdə araşdırmalar aparmışdılar. Həmin araşdırmaların qənaətinə əsasən, türk mənşəli toponimlər erməni adları ilə əvəzlənmişdir. Ardıcıl olaraq, bir məqsədə doğru addımlayan ermənilərin saxta tarix siyasəti yazılmış mənbələr vasitəsi ilə təqdim edilir. Tarixi mənbələrdə göstərilir ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermişdir: "Addəyişmənin birinci dövründə türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Bu da, ərazinin Rusiya tərəfindən işğalı və oraya rusların kütləvi şəkildə köçürülməsi ilə bağlıdır. İlk dəyişdirilən ad isə Cəlaloğlu (Stepanovan) rayonundakı




Qaraməhəmməd kəndidir. Onun adı dəyişdirilərək, Aleksandrovka qoyulub. Bu ilk addım sonralar daha geniş miqyası əhatə edərək, günümüzə qədər gəlib çıxmışdır. Bu gün ilk addəyişilmə zamanından 200 il keçir. İki əsrlik tarixi dövrün acı nəticələrini hələ də yaşayırıq. 1918-20-ci illərə aid səhifələr xalqımızın başına gətirilən erməni müsibəti, erməni genosidi ilə bütün dünyaya məlumdur. Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda və indiki Ermənistanda minlərlə azərbaycanlı qətlə yetirildi. Onlar xalqımızı, soyqırımına məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırmaqla və yenidən addəyişməni davam etdirməklə, mənəvi soyqırımını da davam etdirdilər. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Molla Dursun - Şaumyan, Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi. Ermənilər soyqırımı siyasətinin nəticəsində, yer adlarımızın da soyqırımı zaman-zaman həyat keçirilib. Tarixi faktdır ki, SSRİ dövründə daha çox Azərbaycan toponimlərinə qarşı iddialı çıxışlar olub. Bunun nəticəsidir ki, imperiyanın ilk illərində Azərbaycana məxsus olan yer adları dəyişdirildi.

Belə ki, 1924-1930-cu illər ərzində, Ermənistanda 80 toponim dəyişdirildi. Tarixi sənədlərdə göstərilir ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsi müxtəlif tərəflərdən izah olunsa da, kökü həmin adların türk mənşəli olması idi. Leninin ermənipərəst siyasəti və Azərbaycan toponimlərinin erməniləşdirilməsi daha kütləvi xarakter alırdı. Leninin razılığı ilə 1920-ci ildə onlar ərazi iddialarını təmin edə bilmişdilər. Belə ki, azərbaycanlılar yaşayan Zəngəzur və Göyçə mahalları, Qazax qəzasının Dilican dərəsi Azərbaycandan qoparılıb, Ermənistan Respublikası yaratmaq naminə ermənilərə bağışlandı. Erməni təcavüzkarları tarixə qarşı da genosid siyasətinə əl atdılar. Məlumdur ki, Ermənistan SSR yaranmamışdan, onun zəbt etdiyi Qərbi Azərbaycanda kəndlərin 95 faizdən çoxunun adi türk mənşəli olmuşdur. Kommunist rejimi zamanı isə, qısa vaxt kəsiyində, azəri toponimləri tam erməniləşmişdir.

Bu, genosid siyasətinin bir istiqamətidir ki, Azərbaycan diyarı olan İrəvan xanlığının tarixdən və yer üzündən silinməsinə xidmət edirdi. Belə ki, 1924-cü ildən həmin addəyişdirmə prosesi başlandı və ilk olaraq, Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1935-ci ildə 195 kəndin, 1945-ci ildə 39 kəndin, 1946-cı ildə 120 kəndin, 1947-1978-ci illərdə 400-dən çox kəndin, 1978-80-ci illərdə 300-dən çox kəndin, 1991-ci ildə isə, qalan 94 kəndin adı dəyişdirildi.

Tarixçi-alimlərin fikirlərinə istinadən, deyə bilərik ki, bir çox hallarda, yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməncəyə tərcümə olunmuş, ya da bir-iki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melik-kənd-Melikgyuğ, Güllücə-Vardenis, Gözəldərə-Geqadir, Qamışqut-Yeğeqnut və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin və düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. Buna baxmayaraq, əcdadlarımızın qoyduğu müqəddəs adlar tarixin səhifələrinə həkk olunub. Zaman həqiqətləri bərpada güclü silahdır. Bu reallıqlar erməni xislətini və Azərbaycana qarşı iddialı çıxışını əks etdirir.

Bu gün Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu əraziyə bitişik yeddi rayon Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə ediblər və o vaxtdan bəri ATƏT-in Minsk Qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bu günə qədər yerinə yetirməyib.

Ermənilərin həyata keçirdikləri bu siyasət erməni siyasətinin mənfurluğunu və öz tarixini Azərbaycanın qədim tarixi üzərində qurmaq ideyasını açıq-aydın özünü göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Cihan Özdəmir: "Türk qurultayı alimlərin tanışlığı və elmi müzakirələr üçün nadir platformadır"

Bakıda keçirilən XIV Beynəlxalq Böyük Türk Qurultayı və 87-ci Türk Dili Bayramı türk dilinin zənginliyini və onun dünya dilləri arasında özünəməxsus yerlərdən birinə sahib olmasını şərtləndirir. Bura eyni zamanda türkoloq alimlərin tanışlığı, qarışlıqlı əməkdaşlıq və elmi müzakirələr aparmaq üçün açıq, nadir platformadır. Qurultayımız türk dilinin yaşadılması, saflaşdırılması istiqamətdə işlərə dəyərli töhfə verir. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Cihan Özdəmir səsləndirib. Türkiyədə ilk Türk Dili Qurultayının 1932-ci ildə Mustafa Kamal Atatürkün dövründə keçirildiyini xatırladan Cihan Özdəmir deyib: "Bu il həmin qurultayın 87-ci ildönümü qeyd edirik. Qurultay ilk dəfə 1926-cı ildə Bakıda keçirildiyi üçün builki qurultayı da məhz burada reallaşdırmağa qərar verdik. Dünyada bir sıra türkoloji mərkəzlər fəaliyyət göstərir. Onlardan biri də Bakıdadır".




Qurultayın Türkiyə-Azərbaycan Dostluq İşbirliyi Dayanışma Vəqfi tərəfindən təşkil etdiyini deyən Yunus Əmrə İnstitutunun rəhbəri builki tədbirdə 100-dək türkoloqun iştirak etdiyini bildirib. O vurğulayıb ki, iştirakçılar arasında türk dilinin qrammatikası üzərində çalışanlar və türk ədəbiyyatının tədqiqatçıları var. Tədbirin əhəmiyyəti, həm də ondadır ki, burada türk dili ilə bağlı yeni tədqiqatlar və elmi yanaşma tələb edən məsələlər müzakirə edilir, elm adamları öz fikirlərini ortaya qoyur. Azərbaycanla Türkiyə arasında qardaşlıq bağlarının daim möhkəmləndiyini söyləyən Cihan Özdəmir bütün sahələrdəki sıx əməkdaşlıq əlaqələrindən məmnunluğunu ifadə edib.

# AXCP-nin ardınca, “REAL” partiyasında da tükürpədici ailə olayı!

## *İlqar Məmmədovun “sağ əli” iki azyaşlı uşağı olan ailəli qadını yolundan azdırıb*

***AXCP sədrinin keçmiş müavini Fuad Qəhrəmanlının həyat yoldaşına və qız övladlarına qarşı törətdiyi şiddət olayının ardınca, daha bir tükürpədici olay ictimailəşib. Belə ki, bu dəfə İlqar Məmmədovun sədri olduğu “REAL” partiyasında təmsil olunan və “sağ əli” hesab edilən Mete Türksoy adlı funksioner ailə dağıdaraq, həmin ailədə xəyanətkarlığın törədilməsinə səbəb olub. AXCP-nin aşırı ultra - sağçılığından fərqli olaraq, özünü “liberal” adlandıran M.Türksoy adlı şəxsin əməlləri, daha dəqiq desək, iki azyaşlı uşaq anasını yolundan azdıraraq ərindən ayırıb, özünküləşdirməsi faktı, həqiqətən də, sağlam düşüncəli ictimai rəyin hiddətinə səbəb olub.***



### “Bunun səbəbi isə onun əlindən telefonun düşməməsi, mütəmadi olaraq, vatsap üzərindən kimlərləsə yazışması idi”









Əldə etdiyimiz məlumata görə, mütəmadi olaraq, haqdan-hüquqdan danışan, “qadın hüquqları” deyə bağıran “REAL” partiyasının funksioneri M.Türksoydan Tovuz rayon sakini Alıyev Rahib Qasım oğlu şikayət edib və bildirib ki, özü ev təmiri ustası işləyərək, gündəlik qazandığı pulla ailəsini dolandırmağa çalışan bir insandır. 2011-ci ildə həmyerlisi olan Paşayeva Səbinə Şahmar qızı ilə ailə qurub və birgə nikahdan iki övladları dünyaya gəlib. “2011-ci ildən 2018-ci ilə qədər normal ailə münasibətlərimiz olub. 2018-ci ildən başlayaraq Səbinə ilə aramızda soyuqluq yaranmağa başladı. Bunun səbəbi isə onun əlindən telefonun düşməməsi, mütəmadi olaraq, vatsap üzərindən kimlərləsə yazışması idi” deyə qeyd edən Rahib, həmçinin, bildirib ki, bunun səbəbini soruşduqda, həyat yoldaşı rəfiqələri ilə yazışdığını deyirdi: “Tez-tez kitab təqdimatı adı ilə harasa gedirdi. Təbii ki, mən baş verən bu dəyişiklik qarşısında şok vəziyyətində idim. Buna qarşı çıxırdım, ailədə gərginlik yaşanırdı. Sonradan bildim ki, Səbinə mənim xəbərim olmadan, “Facebook” sosial şəbəkəsində adına profil açıbmış”.

“2019-cu ilin iyul ayının 28-də axşam işdən evə gələrkən, Səbinənin otaqlardan birində kiminləsə telefonla danışdığını gördüm. Qonşu otağa girib danışıqları dinləməyə başladım. Səbinə mənə xəyanət edərək, sonradan kimliyi mənə məlum olan sevgilisi ilə danışırdı. Hər şey məlum idi. Otağa girib ona bir şillə vurdum” deyən Rahib deyib ki, bütün bunlardan sonra daha dəhşətli hadisələr cərəyan edib.

### “Telefonla danışdığı şəxs də Mete Türksoy adlı “REAL” partiyasının üzvü imiş”

Məhz bundan sonra bəlli olub ki, Səbinə özüsnü “liberal” adlandıran və ailə institutlarına, milli-mənəvi dəyərlərimizə qarşı çıxan müxalifətçilərə - “REAL” partiyasının aparıcı üzvlərindən birinə qoşulubmuş. “Telefonla danışdığı şəxs də Mete Türksoy adlı “REAL” partiyasının üzvü imiş. Sonradan bildim ki, Səbinə mən işdə olan zaman evdən çıxaraq Mete adlı şəxslərə görüşürmüş. Hətta bu zaman özü ilə azyaşlı uşağımızı da aparırmış” kimi dəhşətli faktı da açıqlayan Rahib sonradan bildirib ki, Səbinə evin qapılarının açarını alandan sonra, qız övladını da götürərək, müxalifətçi Mete Türksoyun yaşadığı evə gedib: “Mən də oğlumla qardaşımın evində qalmışam. Təqribən 1 həftə sonra, Səbinə qızımı öz dayısıgilin evinə ataraq, çıxıb gedib. Səbinənin anası qızımı mənim yanıma gətirdi. Hazırda mən iki azyaşlı uşaqla birgə olduqca çətin şəraitli 1 otaqlı daxmada yaşayaram. Övladlarıma baxıram, uşaqlardan biri hazırda 1-ci sinifə gedir. Məktəbə aparıram, işləyirəm, işdən gəlib yeməklərini bişirirəm. Səbinənin anası da qızının bu xəyanətindən şokdadır. Dəfələrlə əlaqə yaratmağa çalışsa da, Səbinə artıq 3 aya yaxındır ki, M.Türksoy adlı müxalifətçi ilə qeyri-qanuni bir şəkildə yaşamağı üstün tutur. “Facebook”dakı profilində də dəyişiklik edərək, soyadını Türksoy yazıb. Bu, azmış kimi, M.Türksoy da məni təhdid edir. Əməkçi bir insan olmağımdan istifadə edərək, mütəmadi olaraq, mənə mesaj göndərib hədə qorxu gəlir. Arxasında kimlərinsə durduğunu bildirir. Bu haqda prokurorluğa, polisə və digər dövlət oraqanlarına müraciət də etmişəm. Ailəmi dağıdan müxalifətçi Mete Türksoyun cəzalandırılmasını istəyirəm”.

### “Mənə mesaj yazır ki, mən öz həyatımı yaşayıram... Uşaqlar mənim həyatıma mane olur”

Rahib onu da qeyd edib ki, hazırda boşanmaq üçün Tovuz rayon məhkəməsinə müraciət olunub. O, bütün əlaqədar qurumlardan xahiş edir ki, övladlarını atıb gedərək, qeyri-qanuni bir həyat yaşayan “ana”ya bu imkan verilməsin. “Mən uşaqlarımın gələcəyindən qorxuram. Qorxuram ki, uşaqlar da Səbinənin təsirə düşdüyü qrupun təsirinə düşüb, axırları pis olsun. Ən çox da qız övladımın onlara verilməsini istəmirəm. Bu 3 ayda Səbinə uşaqları ilə bir dəfə də olsun, maraqlanmayıb. Mənə mesaj yazır ki, mən öz həyatımı yaşayıram. Uşaqları istədiyim vaxt əlindən alacam. Hazırda gəncəm, həyatımı yaşayıram. Uşaqlar mənim həyatıma mane olur” deyə “REAL” partiyasının üzvü ilə ailəsinə xəyanət edən Səbinə haqqında bildirib.

“Belə bir “ana”ya uşaq vermək olarmı? Bütün dəlillər əlimdədir, hamısını məhkəmədə təqdim edəcəm. Səbinənin analıqdan məhrum edilməsini tələb edəcəm. Mən bütün ictimaiyyətdən, dövlət oraqanlarından və mediadan kömək istəyirəm. Övladlarımı fəhləliklə böyütməyə hazıram. Yetər ki, övladlarım adını müxalifət qoymuş, pozğunluğu siyasətə çevirmiş və ailələrin dağıdılmasını hədəfləyən qrupun təsirində böyüməsin. M.Türksoy və onun kimi “liberal” müxalifətçilərin əsas fəaliyyətləri “qadın hüquqları” adı altında ailələri dağıtmaq, pozğun bir nəsil yetişdirməkdir. Mən övladlarımın belə mühitdə böyüməsini və gələcəkdə həmin qrupların təsirində olmasını istəmirəm. Mənə kömək edin, heç olmasa, uşaqlarımı qoruyum” deyə Alıyev Rahib belə deyir.

Beləliklə, bir daha sübut olunur ki, heç bir dövlət, millət, xalq dəyərləri bilməyən, bu dəyərlərdən yalnız öz çirkin maraqları üçün sui-istifadə edən, adlarını “demokratiya uğrunda mübarizə aparan müxalifətçilər” qoyan bu bədnam toplum, əslində, cəmiyyət üçün, xalq üçün, əsasən də, dövlətimiz üçün çox təhlükəlidirlər. Belə təhlükələrin qarşısını isə vaxtında və zamanında almaq gərəkdir, mütləq gərəkdir!

***Rövşən RƏSULOV***

# Bəs nə oldu, Əli Kərimli?

Düz iki həftədən çox idi ki, AXCP sədri Əli Kərimlinin dirijor çubuğu ilə idarə olunan “Milli Şura” sosial şəbəkələrdə, “youtube”nin canlı yayımlarında bar-bar bağırıb, mitinq çağırışları edirdilər. Qənimət Zahid bir tərəfdən, Sevinc Osmanqızı o biri tərəfdən, Avropadakı küçə uşaqları da, digər tərəfdən “qoyma gəldi” prinsipi əsasında, necə deyərlər, “dağı-dağ üstünə qoymaqdaydılar”. Bəs hökumət mitinqə icazə verməsə belə edəcəyik, mitinq keçirmək üçün yer verməsələr, söz azadlığı hüququmuzdan istifadə edib, icazəsiz aksiyalara başlayacağıq və s. Sözün qısası, əməlli-başlı meydan oxuyurdular hakimiyyətə. Bəs nə oldu..?

### “Motodrom”da, “avtoşkola”da mitinq keçirənlər sizlər deyildinizmi?



Bu oldu ki, BŞİH “Milli Şura”nın müraciətinə müsbət cavab verdi və mitinqin keçirilməsinə etiraz etmədi, hətta yer də təklif etdi - Lökbatanda istifadəyə verilmiş yeni və bütün müasir standartlara cavab verən stadionu! Söz yox ki, onlar, sadəcə, vəziyyəti gərginləşdirib, süni ictimai narazılıq yaratmalıydılar və bunun üçün də, Ə.Kərimli dərhal öz yan-yörəsindəkilərlə cumdular klaviaturalara ki, təklif olunan yerdən imtina edirlər. Bəs onların narazılıqlarının daha bir səbəbi nə idi? Axı bu gün də bir çoxlarının xatirindədir ki, vaxtilə “Milli Şura” təlxəkləri, məhz “Məhsul” stadionu təklif edilərkən də özlərini ülgücləyir, yaxa-başlarını cırıb, şalvar-tumanlarını başlarına çəkirdilər ki, bora mitinq keçirmək üçün yararsızdır və s. Amma sonradan, ruslar demişkən, “kak milinkiy” adıçəkisən stadionda mitinqlər keçirməyə başladılar. Halbuki hazırda təklif olunan Lökbatan stadionu “Məhsul”dan daha geniş, daha iritutumlu, daha səliqəli və daha əlverişlidir.

Onu da xatırlada bilərəm ki, həmin bu qaragüruh vaxtilə “Motodrom”da, hətta 20-ci sahə deyilən ərazidəki “abtoşkola” meydanında mitinqlər keçirməyə razılıq vermişdi. Bəs indi nə oldu? Lökbatandan niyə imtina edildi ki? Əgər iddia olunursa ki, onlar Bakı şəhəri ərazisində aksiya keçirmək istəyirlər, bu zaman Lökbatanın Bakının Qaradağ rayonu ərazisində yerləşdiyini də “Milli Şura” qaragüruhlarının qafalarına çatdırmaq gərəkdir.

### Hətta özünüz-özünüzü belə, satmaqla məşğulsunuz!

Əslində, imtina səbəbinin digər reallıqları var ki, həmin reallıqlardan biri də zəifliyin, gücsüzlüyün, qorxaqlığın və hürkəkliyin nümunəsidir. Adama deyərlər ki, əgər sən, həqiqətən də, əminsən ki, tərəfdarlarından kütləvi dəstək alırsan, əminsən ki, harada olursa-olsun, sənin yanında olacaqlar, onda birdən-birə siyasi mütrüblük etməyin nə mənası var?

Yeri gəlmişkən, ötən gün AXCP-nin Fransadakı robot-jurnalisti Q.Zahid Lökbatandakı yerdən imtinanın səbəblərindən biri kimi, guya “Milli Şura”nın mitinqlə bağlı müraciətinə bir iş günü qalmış, yəni gec cavab verildiyini “əsas” gətirib. Amma onu da bildirib ki, “Milli Şura” rəhbərliyi öncədən hökumətin təqdim edəcəyi yerləri təxmin etmişdi (?). Maraqlıdır ki, əgər siz hökumətin təklif edəcəyi yerləri təxmin etmişdinizsə, deməli, hər an hazırlıqlı olmalıydınız. İndi olmamısınızsa, hökumət nə etsin? Bəlkə gedib günahı yenə də özünüzdə axtarasınız? Misal üçün, özünüzü günahlandırasınız ki, bu millətin və xalqın sizdən zəndeyi-zəhləsi gedir, hansı yuvanın quşları olduğunuzu da yaxşı bilir, ona görə də, rədd edir sizin kimi dövlət və xalq maraqlarını ora-bura satan qaragüruhu. Hətta özünüz-özünüzü belə, satmaqla məşğulsunuz! Uzağa getməyərək, Fuad Qəhrəmanlı faktını ortaya qoyuram, yəni ictimailəşmiş səs yazısını...

### Hanı “on minlərlə fədakar fəallar”, “AXCP-yə axın edən yüzlərlə üzvlər”?

Nəticə etibarı ilə fakt budur ki, hakimiyyət “Milli Şura”nın mitinq keçirməsinə rəsmən icazə verdi və Ə.Kərimli bundan imtina etdi, bir sıra çoxsaylı şübhəli məqamlarla bağlı sualları cavabsız qoydu, yayındı, ictimai fikri digər məsələlərə yönəldərək, daxilindəki qorxaqlığını gizlətməyə çalışdı. Hətta onun iddia etdiyi kimi, “on minlərlə fədakar fəallar”, “AXCP-yə axın edən yüzlərlə üzvlər” də yoxa çıxdılar. Onların saxta profillərlə trolluq etmələri, demə, Ə.Kərimlidə elə təəssürat yaratmışdı ki, həqiqətən də, onun on minlərlə üzvləri varıymış... Çox gülməli və istehzalı bir məsələdir bu, əslində...

***Rövşən NURƏDDİNOĞLU***

***P.S.*** *Beləliklə, Ə.Kərimlinin və ətrafının oyunbazlıqları, sözün əsl mənasında isə, polyaçiklikləri bura qədərmiş. İndi də saxta iddialarını irəli sürüb, icazəsiz aksiyalar keçirmək üçün dəridən-qabıqdan çıxacaqlar. Yəni şəhərin künc-bucaqlarında beş-on nəfər atlanıb-düşəcək və onların qarşısını güc strukturları alacaq, sonra da ki, gəl keyfim gəlll..! Axsın qrantlar sel kimi. Amma çətin axsın, çünki bunların qrant “krantları” da quruyub. Çünki xarici ağaları da Ə.Kərimlidən, ümumiyyətlə, qaragüruh hay-həşirçilərdən əllərini üzüblər.*

# İşğalçı Paşinyanın böyük qələtinin böyük bədəli...

## *“Qarabağ Ermənistanındır, vəssalam!” sərsəm bəyanatının bəlası...*



Ermənistanda mütləq diktatora çevrilən baş nazir Nikol Paşinyan gəldiyi gündən sərsəm bəyanatları ilə ətrafında olan inandıqları məmurları rəqibə çevirir. Hazırda görünən budur ki, baş verənlər fonunda ermənilərin millət və dövlət kimi formalaşmasında rol oynayan əsas amillərlə hakimiyyət arasında ciddi ziddiyyətlər: kilsə, Rusiya faktoru, diaspor və “Qarabağ klanı”ndan gedir. Çünki bu üç ciddi faktorların həll olunmaması, Ermənistanın bir dövlət olaraq, tarixin arxivinə atılması deməkdir. Məlum olduğu kimi, bu gün işğalçı ölkənin ehtiyatları, mövcud potensialı kənar yardımlar olmadan onun mövcudluğunu davam etdirməsi mümkün deyil. Çünki bu gün Paşinyanın yalançı, verdiyi vədlərin heç birinə əməl etmədiyini artıq sadə erməni xalqı bilir.

Rusiyalı politoloq Oleq Kuznetdov demişkən, Paşinyan ilk gəldiyi gündən ancaq populist çıxışlar edib: “Paşinyan daxili siyasətdə bu ilin yazında xalqına verdiyi vədlərin heç birini yerinə yetirməyib. Küçədən hakimiyyətə gələn Paşinyan populist və demaqoqdur, eləcə də, dövlət idarəçiliyi və maliyyə siyasəti məsələlərində həvəskardır. O və onun bütün komandası amerikayönümlü qeyri-hökumət təşkilatlarından ortaya çıxan şəxslərdir. Əsas vəzifələri də dövlət quruculuğu deyil, dövləti tənqid etməkdir. Buna görə Ermənistanın mövcud hökuməti tamamilə həvəskar və demaqoqlardan ibarətdir. Bu adamların heç biri ölkədə müsbətə doğru köklü dəyişiklik etmək iqtidarında deyil”.

Politoloqun sözlərinə görə, Paşinyan və onun komandası erməni əhalisi arasında öz inamlarını təmin etmək üçün yeganə üsula malikdir: “O, seçki ərəfəsində əhalinin diqqətini daxili problemlərlə qatmalıdır. Paşinyan kollektiv şüursuzluqdan istifadə edərək, kütlənin ona olan sədaqətini itirməsinə yol verməmək fikrindədir. Ona görə də, bu gün Dağlıq Qarabağ separatçılarının qeyri-qanuni silahlı qruplaşma komandirlərinin siyasi xələfi kimi o, Ermənistan-Azərbaycan münaqişəsini qızışdırmağa məcburdur. Erməni ordusu çarəsizliyi səbəbindən, genişmiqyaslı hərbi əməliyyatlara başlaya bilməz, lakin seçki ərəfəsində öz reytinqini yüksəltmək üçün işğal olunmuş torpaqlarda hər hansı hərbi təxribat həyata keçirə bilər - Paşinyan bunu bacarır”.

### Paşinyanın debil və sərsəm, işğalçı siması

Göründüyü kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlamalar və ümumilikdə, əndrəbadi siyasi “manevrləri” onun çox gerizəkalı olduğunun göstəricisidir. Bu fikri, ona görə deyirik ki, bu boşboğaz baş nazirin Azərbaycanın işğal olunmuş ərazisində Dağlıq Qarabağda ümumerməni oyunları kimi avantürist tədbirlərə qatılaraq, orada “Qarabağ Ermənistandır. Nöqtə” deməsi Ermənistanın daha tez uçuruma yuvarlanmasına təkan verdi. Çünki bütün dünya dövlətləri, o cümlədən, beynəlxalq siyasi və hüquqi təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyırlar. Bu isə beynəlxalq hüquq normalarına əsaslanır, eyni zamanda, BMT-nin də işğal edilmiş Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad olunmasına dair məlum dörd qətnaməsi aydın şəkildə göstərir ki, Ermənistan işğalçıdır və Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək qaçılmazdır.

Rusiyanın Ermənistana qarşı münasibətlərində ciddi dəyişikliklər, bir daha göstərir ki, Moskva artıq İrəvanın etibarlı tərəfdaş olmadığını aydın görür. Məhz bu durumda Rusiyanın Ermənistan üzərindən əlini çəkməsi qaçılmaz sayılır. Bu isə, o deməkdir ki, artıq uçuruma gedən işğalçı ölkəni daha ağır günlər gözləyir. Eyni zamanda, diaspor faktı ilə bağlıdır. Artıq diaspor da Paşinyan iqtidarına etibar etmir və baş nazirin ziddiyyətli və sərsəm açıqlamaları diasporu Ermənistandan uzaq salır. Onu da xatırladaq ki, Paşinyan diaspor komitəsini ləğv edəndə, hətta kilsə də ona qarşı çıxmışdı. Ümumerməni katolikosu ona açıq məktub ünvanlayaraq, erməni diasporunun fəaliyyətini yüksək qiymətləndirmiş, komitəyə ehtiyacın olduğunu vurğulamışdı. Amma Paşinyan mövqeyindən geri çəkilmədi və elə o vaxtdan onunla diaspor arasında ziddiyyətlər dərinləşib. Bütün bunlar Ermənistanın böyük ziddiyyətlər dövrünə qədəm qoyduğunu da açıq nümayiş etdirir. Belə vəziyyətdə Ermənistanın onu ayaqda saxlayan əsas dayaqlardan məhrum olması isə, onun bir dövlət kimi məhvə getməsini qaçılmaz edir.

### Paşinyanın “yarımçıq mübarizə” metodu hakimiyyəti ölümə aparır

Yuxarıda vurğulanan faktlarla yanaşı, ölkədaxili qarşıdurmalar da səngimir. Siyasi politoloqların sözlərinə görə, son günlər işğalçı ölkədə kadr dəyişiklikləri və böhranlar hakimiyyət daxilində ziddiyyətlərin daha kəskinləşməsinə səbəb olub. Artur Vanetsyanın və Valeri Osipyanın istefaları yüksək rütbəli məmurlar arasında narahatlıq yaradıb. Politoloqlar bu istefaların səbəbini Paşinyanın “yarımçıq mübarizə”sində görür və bildirirlər ki, ümumilikdə, bütün bunlar xalqın ac və səfalət həddində olması reallığını arxa plana keçirir. Daha dəqiq desək, Ermənistandakı mövcud hakimiyyətin inqilab eyforiyası bitib və verilən vədlərin heç biri reallaşdırılmayıb. Bu isə, ölkədə yeni və daha kütləvi inqilabın baş verməsi anonsunu önə sürür.

Bir sözlə, “Qarabağ Ermənistanındır, vəssalam!” sərsəm bəyanatı isə sərsəm baş nazirin sərsəm qələtinin bədəli də böyük olacaq. Məhz Ermənistanın son günlərdəki durumu, onu bir daha göstərir ki, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparmamalıdır. Çünki yekun eyni olacaq, daha dəqiqi, daha pis... Yəni Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq.

**A.SƏMƏDOVA**

# Parlaq kimi sırınan səfil Ermənistan

***“Günümüzün uğursuz erməni inqilabçıları hakimiyyətin imkanlarından və fürsətindən tam gücü ilə istifadə edirlər. Çünki heç vaxt şüurlu həyatlarında belə bir fürsət əldə edəcəklərini təsəvvür belə edə bilməzdilər”. Bu fikirlər Ermənistana məxsus mətbuat səhifələrində də öz əksini tapır. Ələlxüsus, bəzi politoloqlar, siyasi şərhçilər, siyasi səhnədə olan tanınmışlar sosial şəbəkələrdə, öz “Facebook” səhifələrində bu barədə, mütəmadi olaraq yazır, mövcud hakimiyyətin, “yeni Ermənistan” kimi sırınan dövlərin, demokratiya adı altında oynadıqları bütün oyunları, Paşinyanın repressiya siyasətini açıq-aşkar ifşa edirlər.***



“Bir Ermənistan” partiyasının həmtəsisçisi Artur Kazinyan öz “Facebook” səhifəsində baş nazir və onun komandasının hədsizliyi, hakimiyyət kürsüsündən, onun imkanlarından, əllərinə qəfil düşən fürsətdən maksimum dərəcədə istifadə etdiyini yazır. “Nikol Paşinyan milli və dövlət maraqları ilə heç bir əlaqəsi olmayan və demək olar ki, şəxsi ziyarətə bənzər bir səfər üçün təyyarəni xüsusi istifadəsinə götürür, mənim və sizin hesabınızdan 350.000 dollar dəyərində olan bir vəsaitdən özü üçün, ağlına gəldiyi şəkildə istifadə edir. Ümumiyyətlə, Ermənistanın tarixində heç vaxt belə bir hadisə, belə şəkildə dövlət mülkiyyətindən, imkan və fürsətdən istifadə olmayıb və bu, birinci dəfədir ki, bunu da Nikol Paşinyan etdi.



Diqqət çəkən odur ki, belə bir ifrat dərəcəli israfçılığı yalnız ərəb şeyxləri öz lüks həyatları üçün ediblər. Ermənistanın yeni hakimiyyəti, səfər üçün hazırlanan nümayəndəliyin belə bir gedişi, məsələn, jurnalistlərin belə bir səfəri üçün nə qədər vəsait tələb olunduğunu hesablayıbmı?

Təsəvvür edin ki, Paşinyanın öz istifadəsi üçün israf etdiyi bu qədər vəsaitlə neçə yara sağalardı, neçə xəstə uşaq müalicə oluna bilərdi, neçə evsiz ailələr mənzillə təmin edilə bilərdi və nəhayət, neçə yaralı əsgər müalicə və bərpa oluna bilərdi. Amma yox, kral kürsüsünü zəbt etdiyini zənn edən biri gərək, kral həyatı sürməli, onun övladları da çoxsaylı imtiyazlara-mühafizəyə və heç kimdə olmayan təminata malik olmalıdır axı”, deyə Artur Kazinyan öz “Facebook” səhifəsində Paşinyan və onun komandasını ələ salır, dövlət mülkiyyətindən, xalqa məxsus vəsaitlərdən özü üçün, öz kefi üçün ağlına gələn şəkildə istifadə etdiyinə görə, onu hədəfə alır.

Həqiqətən də, həyatları boyu ekonomklas biletlərindən və dördulduzlu otellərdən başqa bir şey görməyən insanlar, yəni Paşinyan və onun komandasındakılar bu gün xüsusi təyyarələrdən istifadə edirlər, dünyanın ən bahalı otellərinin prezident otaqlarında qalırlar və ən bahalı butiklərdə alış-veriş edirlər. “Bir Ermənistan” partiyasının həmtəsisçisi öz səhifəsində bu barədə də açıq-aşkar yazır və hazırda Ermənistan hakimiyyətində təmsil olunanların fürsəti əldən verməyərək, indi istifadə etdiklərinin bir zamanlar yuxularına belə girmədiyi imkanlar olduğunu dəfələrlə vurğulayır.

Məgər inqilabın tələbi bu idi? Erməni xalqı, Ermənistan vətəndaşları bir neçə ailənin həyat səviyyəsinin kəskin artması uğrunda vuruşdular, zorakılığa məruz qaldılar və həbs edildilər?

İndi, “Bir Ermənistan” partiyasının həmtəsisçisi Artur Kazinyan kimi siyasətçilərin, politoloqların timsalında bütün ermənilər, təəssüf edirlər ki, bu müddət ərzində, çox şey etmək olardı. Dərin islahatlara başlamaq olardı və nəinki Nikolun, onun ailəsinin və hakimiyyətdə təmsil olunan bir neçə ailənin həyat keyfiyyəti, eyni zamanda, bütün Ermənistan vətəndaşlarının həyat keyfiyyəti, sosial və fiziki təhlükəsizlik səviyyəsi yaxşılaşdırıla bilərdi. Bu ölkənin beynəlxalq nüfuzu arta, regional və beynəlxalq proseslərdə iştirakı rellaşdırıla bilərdi. Təbii ki, əgər Ermənistan naminə qlobal iqtisadi layihələr, regional əməkdaşlıqlar, sabitliyi təmin edən münasibətlər reallaşdırılsaydı və işğalçılıq siyasətindən əl çəkib normal münasibətlər üzərində strategiya tətbiq olunsaydı.

Məsələ burasındadır ki, xalqın adından, onun yaşayışının yaxşılaşdırılması mövqeyindən çıxış edən, daha doğrusu, istifadə



edən Nikol Paşinyan da, onun komandası da, onların Ermənistan hakimiyyətinə yerləşdirilməsində maraqlı qüvvələrin, məhz maraqlarından istifadə edərək, hakimiyyəti öz həyatlarının lüks təminatı üçün zəbt etdilər. İndi ələ keçirilən fürsət hesabına qurduqları bu həyatı itirmək təhlükəsi ilə qarşılaşdıqları zamanda, Paşinyan və onun komandasının repressiyalara əl atması da başadüşüləndir. Əgər xalq adından istifadə edənlər xalqı, Ermənistanı və onun dövlətçiliyini nəzərə alsaydılar, ilk növbədə, erməni xalqını düşünər, onun təminatı üçün çalışar, elə bir strategiya tətbiq edərdilər ki, bununla da, bu gün yalandan parlaq təqdim etdikləri Ermənistanı səfalətə sürükləməzdilər. İndi dünya ictimaiyyətinə parlaq tərzdə təqdim edilən, daha doğrusu, sırınan səfil Ermənistanın portreti hamıya bəllidir və artıq bunu repressiyalardan qorxmayan, çəkinməyən bütün erməni siyasətçiləri, politoloqları, hətta sıravi ermənilərin özləri də etiraf edirlər.

**İnam HACIYEV**

***2007-ci il oktyabrin 5-də yaradılan Azərbaycan-İraq Mədəni Əlaqələri İctimai Birliyinin Beynəlxalq Mətbuat Mərkəzində bununla bağlı keçirilən mərasimdə məramları barədə məlumat verildi. Qurumun rəhbəri Tahirə Məmmədova Azərbaycan-İraq mədəni əlaqələrinin tarixindən söz açaraq, fəaliyyətlərini bu əlaqələrin inkişafına yönəldəcəklərini vurğuladı. Birliyin yaradıcılarından olan Roza İbrahimova Azərbaycan və İraq xalqları arasında dostluğun, mədəni əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı təmasların gücləndirilməsi naminə çalışacaqlarını söylədi: "Azərbaycanlıların İraqın tarixi və mədəniyyəti ilə, iraqlıların isə qarşılıqlı olaraq bizim mədəniyyətimizlə yaxından tanış olması üçün işlər görəcəyik. Həmçinin, Azərbaycanın İraqla mədəniyyət, təhsil və səhiyyə sahələrində əməkdaşlığının yeni yollarının müəyyənləşdirilməsi də qarşıya qoyduğumuz məqsədlərdəndir".***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə, "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi", "Dəyərlərimizi tanıdaq, həqiqətlərimizi çatdıraq" - Azərbaycan-İraq mədəni dəyərlər sərgisi" və tarixi həqiqətlərimizin beynəlxalq mediada təqdimatı" layihəsinin icrasına başladı.

Layihənin direktoru, "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyinin sədri Tahirə Məmmədova həyata keçirilən layihənin məqsəd və məramı haqqında məlumat verərək, bildirdi ki, layihənin əsas mahiyyəti, Azərbaycan və İraq xalqlarının mədəniyyətlərini bir-birinə tanıtmaq, tarixi həqiqətləri beynəlxalq media və ictimaiyyətə çatdırmaq, milli dəyərləri qoruyub, təbliğ etməklə, xalqlararası əlaqələri gücləndirməkdir.

Layihə çərçivəsində, Azərbaycanda İraq-Azərbaycan xalqlarının tarixi həqiqət və mədəni dəyərlər sərgisini təşkil edərək, İraq-Azərbaycan xalqlarının milli folklor, tarix, mədəniyyət, incəsənət nümunələrini, milli geyim, milli musiqi və mətbəxini nümayiş etdirərək, İraqdan jurnalistlər və mədəniyyət xadimlərini ölkəmizə dəvət edib, onların ölkəmizin maddi-mədəniyyət abidələrinə ekskursiyasını təşkil edəcək, Ermənistan-Azərbaycan, Dağlıq əsas məqsədi və məramı, Azərbaycan və İraq xalqlarının Multikulturalizmini və mədəniyyətini, milli dəyərlərimizi qoruyaraq, beynəlxalq ictimaiyyətə təbliğ etməklə, tarixi həqiqətləri beynəlxalq media və ictimaiyyətə çatdırmaq, milli dəyərləri qoruyub-təbliğ etməklə, xalqlararası əlaqələri gücləndirməkdir.

Tədbirdə İraqın Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri cənab Awad Jebur AL-Shuwaili, səfirliyin əməkdaşları və İraqdan gəlmiş iraqlı jurnalistlə və mədəniyyət xadimləri ilə yanaşı, Milli QHT Forumunun Prezidenti, Rauf Zeyni, Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri Birliyinin sədri Mehdi Mehdiyev, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Azərbaycan təmsilçiliyinin koordinatorları Akif Nağı, Azərbaycan Respublikası Beynəlmiləlçi Əlil Döyüşçülər Fondunun Prezidenti Sərraf Orucov, Dünya Azərbaycanlılarının Vətənpərvərlər İctimai Birliyinin sədri Nəsimi Qarabağlı, Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin sədiri Mətanət Əsgərqızı, Müharibə Veteranı Qadınlarının Sosial Problemlərinə Dəstək İctimai Birliyinin sədri nın Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının rəhbərliyinə minnətdarlıqlarını bildirdi.

Sərgidə müxtəlif sahələr üzrə, Azərbaycan-İraq xalqlarının milli folklorunun, tarixi-mədəniyyətin, incəsənət nümunələrinin, milli geyimlərinin, milli musiqilərinin, milli mətbəxlərinin və Qarabağ hadisələrində erməni separatçılarının törətdikləri vəhşilikləri əks etdirən şəkillər nümayiş edildi.

"Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi"nin sədri Tahirə Məmmədova layihəyə dəstək verən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının rəhbərliyinə İraqın Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri cənab Awad Jebur AL-Shuwaili, səfirliyin əməkdaşlar və İraqdan gəlmiş iraqlı jurnalistlə, mədəniyyət xadimlərinə və təşkilatlara öz minnətdarlığını bildirərək, onları təşkilatın adından Fəxri Fərmanlarla mükafatlandırdı.

Jurnalist, "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyinin sədiri Mətanət Əsgərqızı, "Respublika" qəzetinin şöbə müdiri Qədir Aslan, "QHT.az" saytının baş redaktoru Cəsarət Hüseynzadə, "Karabakh Today" saytının baş redaktoru Oktay Hacımusalı, "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyi-

# Azərbaycan-İraq Mədəni Əlaqələri İctimai Birliyinin insan hüquqlarının müdafiəsində və Qarabağ həqiqətlərinin təbliğində rolu

Qarabağ həqiqətlərini və tarixi həqiqətlərimiz beynəlxalq media ictimaiyyətinə çatdırılacaqdır. Layihə müddətində Qarabağ və ərazilərimizin işğalı ilə bağlı tarixi həqiqətlər və milli-mənəvi dəyərləri əks etdirən mədəniyyət nümunələri hər iki xalqın, cəmiyyətlərinə, beynəlxalq media və ictimaiyyətinə davamlı təqdim olunacaq, xarici və İraq KİV-də bununla bağlı məqalə və materiallar yerləşdiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə, "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi" "Azərbaycan-İraq Mədəni Dəyərlərimizi Tanıdaq və Həqiqətlərimizi Beynəlxalq İctimaiyyətə Çatdıraq" adlı layihənin təqdimatı oldu. Layihə çərçivəsində Azərbaycan-İraq xalqlarının multikulturalizmini, milli dəyərlərini, tarixi həqiqətlərini beynəlxalq media və ictimaiyyətinə təbliği sərgisi keçirildi.

Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad olunmaqla başladı. Sonra Azərbaycan-İraq dövlətlərinin himnləri səsləndi.

Layihənin rəhbəri "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi"nin sədri Tahirə Məmmədova həyata keçirilən layihə haqda məlumat verdi. O bildirdi ki, layihənin Radə Abbas, Beynəlxalq İnformasiya və Regional Araşdırmalar İctimai Birliyinin sədri Zaur Gariboglu, Eko-Ekspert İctimai Birliyinin sədri, "Reaksiya.az" saytının baş redaktoru Şəbnəm Rəfaelqızı, Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı, "Qürur" Şəhid Ailələri Xeyriyyə İctimai Birliyinin sədri Naibə Behbudova və KİV nümayəndələrindən "Respublika" qəzetinin şöbə müdiri Qədir Aslan, "QHT.az" saytının baş redaktoru Cəsarət Hüseynzadə, "Karabakh Today" saytının baş redaktoru Oktay Hacımusalı, o cümlədən, başqa ictimaiyyət və mədəniyyət nümayəndələri iştirak edirdilər. Tədbirdə iştirak edənlər "Azərbaycan-İraq xalqlarının multikulturalizmini, milli dəyərlərini, tarixi həqiqətlərini beynəlxalq media və ictimaiyyətinə təbliği" sərgisi, haqında öz xoş sözlərini bildirdilər. Sərgidə İraqın Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri cənab Awad Jebur AL-Shuwaili "Azərbaycan-İraq Mədəni Əlaqələr İctimai Birliyi"nin həyata keçirdiyi layihə barədə xoş sözlərini bildirərək, bu gun İraq dövlətinin belə bir ağır, dar günündə belə əhəmiyyətli layihəni və sərgini maliyyəşdirərək dəstək verdiyi üçün, İraq dövlətinin rəhbərliyi adından və şəxsən öz adından Azərbaycan Respublikası-nın sədri Zaur Qəriboğlu təltif olundular.

Daha sonra sərgidə iştirak edən qonaqlar və sərgi iştirakçıları üçün Azərbaycan-İraq xalqlarının milli mətbəxinə aid xörəklə və şirniyyatlarla bəzədilmiş nahar süfrəsi təşkil edilərək, hər iki xalqların yeməkləri nümayiş olundu.

Xəbər verdiyimiz kimi, Azərbaycan-İraq Mədəni Əlaqələr İctimai Birliyinin Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə həyata keçirdiyi layihə üzrə Azərbaycan-İraq mədəni dəyərlər sərgisi keçirilib. Sərgidə Azərbaycan və İraq xalqlarının folklor, incəsənət, geyim, musiqi, mətbəx nümunələrini əks etdirən fotoşəkillər nümayiş olunub. Tədbirdə iraqlı xanım Raghad Al Safinin "The İraqi Table" ("İraq süfrəsi") kitabı da maraqla qarşılanıb.

Azərbaycanın Milli Kulinariya Mərkəzinin prezidenti, Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov kitabla bağlı fikirlərini bölüşüb. O, mütəxəssis kimi kitabın böyük maraq doğurduğunu vurğulayıb: "Böyük alimimiz Qəzənfər Paşayevin "İraq bizə iraq deyil" deyə-deyə bizə sevdirdiyi bir ölkə ilə bağlı olduğu üçün bu xörək reseptlərindən iraqlı bir ziyalı xanımın öz mətbəxindən dünyaya necə baxdığını bu kitabda gördüm. Raghad xanım İraq mətbəxindən çıxış edərək, öz ölkəsinin mədəniyyətini çox uğurla dünyaya nümayiş etdirir. Yeməyin və süfrənin birləşdirici faktlar olduğunu göstərir. "Yemək yalnız qida deyil, həm də nəsillər və millətlər arasında körpüdür" deyə müəllif çox doğru nəticələr çıxarır. Bir sıra elmi tədqiqatlar aparmış müəllif İraq mətbəxinin türk, fars və ərəb mətbəxinin sintezindən yaradıldığını anladır".

Tahir Əmiraslanov qeyd edir ki, bu ölkə əhalisinin bir hissəsini bizimlə bir soydan olan İraq türkmənləri təşkil etdiyindən, kitabda türk mətbəxinin böyük təsiri görünməkdədir. Müəllif haqlı olaraq dolma, imam bayıldı, boraq və s. yeməkləri türk mətbəxinə aid edir. Kitabda bizə yaxın olan xörəklərdən və şirniyyatlardan iraqlıların da burma, tatlı, zərda, baqlava, qaymaq, fisincan, şəkərləmə, quzi (quzu), yoqurt, nabat, halva və s. yeməkləri İraqın, xüsusilə də, kərkükülərin mətbəxinin bizə yad olmadığını görürük.

"Kitab bizi İraqla daha da doğmalaşdırır, yaxınlaşdırır. Hesab edirəm ki, kitab mütəxəssislər, etnoqraflar, dilçilər və s. elm adamları" üçün maraqlı mənbə olmaqla, həm də evdar xanımlar tərəfindən istifadə edilə bilər" deyə T.Əmiraslanov bildirir.

Bakı şəhəri, Binəqədi rayonu, 8 mkr, Səttar Bəhlulzadə "PRİNS" Şadlıq Sarayında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə, "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi"nin, "Dəyərlərimizi tanıdaq, həqiqətlərimizi çatdıraq" Azərbaycan-İraq mədəni dəyərlər sərgisi və tarixi həqiqətlərimizi beynəlxalq mediada təqdimatı" layihəsi nəzərdə tutulmuş, Azərbaycan-İraq xalqlarının multikulturalizmini, milli dəyərlərini və tarixi həqiqətlərini beynəlxalq ictimaiyyətə təbliğ etmək məqsədi ilə "Azərbaycan-İraq xalqlarının multikulturalizmini, milli dəyərlərini, tarixi həqiqətlərini beynəlxalq media və ictimaiyyətinə təbliği" sərgisi keçirildi.

Öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad oldundu, sonra Azərbaycan-İraq dövlət himləri səsləndi.

Layihənin direktoru, "Azərbaycan-İraq Mədəni Əlaqələr" İctimai Birliyi"nin sədri Tahirə Məmmədova həyata keçirilən layihənin məqsəd və məramı haqqında məlumat verdi. O, bildirdi ki, Azərbaycan və İraq xalqlarının arasında mədəni, milli dəyərləri qoruyaraq təbliğ etməklə, xalqlararası əlaqələri gücləndirmək istəyirik.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 28 sentyabr

## Diqqət: Stress baş ağrısının əsas səbəbidir!



Baş ağrısı çox vaxt stress və gərginlik nəticəsində yaransa da, ağır xəstəlik sindromu da ola bilər. Aparılan statistik təhlillər nəticəsində insanların 60-70 faizinin baş ağrısından əziyyət çəkdiyi məlum olub. Rejimin və şəraitin dəyişməsi, əsəbilik, gərginlik, hətta hava da ağrılara səbəb ola bilər. Mütəxəssislərin fikrincə, baş ağrısı bəzi adamlarda nadir hallarda, bəzilərində isə teztez rast gəlinir. Ağrılar səbəbindən asılı olaraq müxtəlif olur və müddətinə görə fərqlənir.

Bakıdakı 20 nömrəli poliklinikanın həkim-terapevti Solmaz Musayeva AZƏRTAC-a deyib: "Baş ağrılarının birincili və ikincili formaları var. Birincili baş ağrılarına miqren, gərginlik tipli və klaster baş ağrıları aid edilir. Bu ağrılar o qədər də təhlükəli hesab olunmur. İkincili baş ağrıları daha təhlükəli hesab olunur, çünki orqanizmdə olan daha ciddi xəstəliklərin bir siqnalıdır. Məsələn, insulin, beyin şişləri, beyin qanamaları və yaxud ağır anemiya, ağır qan xəstəliyi, ağır böyrək və s. kimi digər daxili orqan xəstəliklərinin xəbərdarlığı kimi özünü göstərə bilər. Ağrıya təsir edən faktorlar çoxdur. Həmin faktorlar arasında stress əsas yerlərdən birini tutur. Bundan başqa parlaq işıq miqren ağrılarını gücləndirə bilər. Yay fəslində parlaq günəş işığının miqren ağrılarını artırması triqer faktoru sayılır".

Həkim-terapevtin dediyinə görə, müayinə zamanı ağrının intensivliyi, başın hansı nahiyəsində olduğu, davametmə müddəti araşdırılır və diaqnoz qoyulur.

"Ağrını azaldan faktorlardan biri də serotonindir və onun çatmadığı vaxtlarda depressiya, əsəbilik və s. hallar yaranır. Bəzən baş ağrıları daha dözülməz və daha ağrılı olur. Bu baxımdan əsəb sistemi ağrılarının baş ağrısında rolu böyükdür. Baş ağrıları ayda dörd-beş dəfədən çox baş verirsə və xəstənin həyat fəaliyyətinə təsir edirsə, iş fəaliyyətini pozursa, şiddətli təsir edirsə, nitqində, yerişində problem, nevroloji qüsur, epileptik tutmalarla müşayiət olunursa, vaxt itirmədən həkimə müraciət etmək lazımdır", - deyə həkim-terapevt əlavə edib. Onun verdiyi məlumata görə, baş ağrıları zamanı qidalanmanın rolu var. Məsələn, sitrus meyvələri, şokolad, pendir, kakao, tünd çay və tünd kofe qəbul etmək məsləhət görülmür, lakin bu, daha çox fərdi yanaşma zamanı aşkar olunur. Çoxlu maye qəbul etmək, xüsusən yayda bol miqdarda su içmək məsləhətdir.

## Bakcell BDU-nun tələbə və məzunlarını karyera imkanları ilə tanış edib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti BDU-nun tələbə və məzunları üçün təşkil edilmiş "Karyerada ilk addım" adlı aktiv məşğulluq tədbirində iştirak edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə BDU-nun tələbə və məzunları üçün "Karyerada ilk addım" adlı aktiv məşğulluq tədbirinin əsas məqsədi tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsi, onların işəgötürənlərlə ilkin əlaqələrinin qurulmasıdır.




Tədbir zamanı universitetin tələbə və məzunlarına Bakcell şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib. Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan Bakcell şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

## Azərbaycanlı cüdoçu dünya çempionatında bürünc medal qazanıb




Azərbaycan cüdoçusu Vüqar Talıbov (73 kq) Qazaxıstanın Almatı şəhərində keçirilən kadetlər arasında dünya çempionatının üçüncü günündə bürünc medala sahib olub.

AZƏRTAC xəbər verir ki, idmançımız otuzikidəbir finalda avstraliyalı Danni Voynikoviçi məğlub edib. Növbəti mərhələdə tunisli Həmzə Vergini üstələyən cüdoçumuz səkkizdəbir finalda qırğızıstanlı Arseni Kladnovu məğlubiyyətə uğradıb. Dörddəbir finalda Braziliya təmsilçisi Qustavo Qomezə uduzan V.Talıbovun təsəlliverici görüşdə rəqibi tacikistanlı Qanijon Qaniyev olub. Cüdoçumuz rəqibinə qalib gələrək bürünc medal uğrunda mübarizədə iştirak hüququ qazanıb. O, bu mərhələdə italiyalı Luici Sentraccioya qalib gələrək fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Yarışın ikinci günündə Azərbaycan cüdoçusu Kamran Süleymanov 60 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. Çempionatda ölkəmizi 18 cüdoçu təmsil edir.

## Ronaldo antirekorda imza atıb

"Yuventus"un futbolçusu Kriştiano Ronaldo antirekorda imza atıb. İtaliya mətbuatının bu barədə yazdığına görə, portuqaliyalı futbolçu A Seriyasında cərimə zərbələrindən ən çox uğursuz istifadə edən ikinci futbolçu olub. O, 18 cərimə zərbəsinin heç birini qola çevirə bilməyib. Bundan sonra komandanın baş məşqçisi Maurisio Sarrinin cərimə zərbələrini Ronaldoya yox, Miralem Pyaniçə həvalə edəcəyi iddia edilir. Qeyd edək ki, A Seriyasında bu antirekorda görə birinci yeri 24 uğursuz zərbə ilə "Frosinone"nun futbolçusu Kamillo Siano tutur.



## "Tokio 2020" Olimpiadasının məşəl estafetində iştirak üçün 530 mindən çox insan müraciət edib




Yaponiyanın yerli hakimiyyət orqanları və korporativ sponsorlar gələn il keçiriləcək Tokio Olimpiadasının məşəl estafetində iştirak etmək istəyən 530 mindən çox insanın müraciətini qəbul ediblər.

Tokio prefekturasının qubernatorluğundan AZƏRTAC-ın Yaponiyadakı bürosuna verilən məlumata görə, martın 26-da Fukuşima prefekturasından start götürəcək estafet iyulun 24-də başa çatacaq. Estafetdə bütün ölkə üzrə 10 mindən çox həvəskarın iştirak edəcəyi gözlənilir.

Prefekturanın hakimiyyət orqanları və sponsor qismində çıxış edən dörd korporativ şirkət iyunun ortalarından avqustun axırınadək ictimaiyyətin müraciətini qəbul edib. Bu orqanların son seçimindən sonra məlumatın təşkilat komitəsinə veriləcəyi bildirilir. Seçilmiş şəxslərə bu barədə məlumat dekabrın sonlarında onların elektron poçtları vasitəsilə çatdırılacaq.

## "Barselona"nın cəriməsini öz cibimdən verməyə hazıram"

"Atletiko" futbol klubunun prezidenti Enriko Sereso Antuan Qrizmannın nəzərdə tutulduğu vaxtdan tez transfer etdiyinə görə "Barselona"nın 300 avro cərimə olunmasına münasibət bildirib.İspaniya mətbuatının yazdığına görə, E.Sereso bu qərara istehzalı münasibət bildirib: "Mən "Barselona"nın bu cəriməsini öz cibimdən verməyə hazıram. Bu, normal deyil. Amma qayda belədir. Arzu edirəm ki, "Barselona" klubu və azarkeşləri Qrizmanna "Atletiko"da olduğu kimi münasibət bəsləsinlər, futbolçu isə öz oyunundan həzz alsın. Əgər biz qarşılaşsaq, Qrizmannla heç bir problem olmadan görüşəcəyəm".




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**